2015 Sentyabr №39

DÜŞÜNƏN İNSAN

44 *ÜZ QABIĞI MÖVZUSU*

# Qlobal yoxsulluq lobbisi



## içindəkilər


6 Dünyanı sevgi xilas edəcək

8 Nümunəvi Quran nəsli formalaşdırmağın əhəmiyyəti

12 Atın təkamülü nağılı

14 İman uşağın qəlbinə yerləşdirilsə həm dünyası, həm də əbədi axirəti xilas olar

16 Cinayətkarı tapan DNT

18 Yanlış matəm anlayışı

20 Gözəllik, karyera, pul və ardınca məzar

28 Hər tərif Allah'adır

38 Quran möcüzələri: göyün tavan olması

40 İsraf etməmək nə üçün vacibdir?

48 Fosillər təkamülü təkzib edir

56 Allah'ın səbəb sənəti

58 İslamın əsl üzü

60 Yuxuda ikən bədənimizdə hansı proseslər baş verir?

63 Bir ayə, bir açıqlama

64 Orqanizmdəki maye miqdarını tənzimləyən böyrəklər


24

## Qara dəliklər: uca Allah'ın Hafiz isminin təcəllisi




34

## İnsan özünü mənfi düşüncələrə təslim etməməlidir



42

## Kirpi balığı şişərkən nəfəsini tutmur




54

## Yarpaqlardakı mikroskopik fabrik




DÜŞÜNƏN İNSAN - Elmi-kütləvi, mənəvi-psixoloji jurnal
Sentyabr 2015; № 38
Azərbaycan Respublikası Ədliyyə Nazirliyində
qeydiyyatdan keçmişdir. Reyestr № 3418
Təsisçi və redaktor: Ziya Kazımov ; Telefon: (077) 381 61 91
E-mail: info@dusuneninsan.net; www.dusuneninsan.net
Ünvan: AZ1000 Abonent qutusu 35,Bakı, Azərbaycan
Çapa imzalanma tarixi:
Tiraj: 300 Qiyməti: 2 manat




**BERKLİ KALİFORNİYA UNİVERSİTETİNİN PROFESSORU FİLİP CONSON:**

"DARVİNİST NƏZƏRİYYƏ CANLILARIN "GETDİKCƏ GENİŞLƏNƏN FƏRQLİLİK ÜÇBUCAĞI" ÇƏRÇİVƏSİNDƏ İNKİŞAF ETDİYİNİ İRƏLİ SÜRÜR. BU NƏZƏRİYYƏYƏ ƏSASƏN, CANLILAR İLK CANLI ORQANİZMDƏN VƏ YA İLK HEYVAN NÖVÜNDƏN BAŞLAYARAQ GETDİKCƏ MÜXTƏLİFLƏŞMİŞ VƏ BİOLOJİ TƏSNİFATIN DAHA YUXARI KATEQORİYALARINI ƏMƏLƏ GƏTİRMİŞDİR. AMMA HEYVAN FOSİLLƏRİ BİZƏ BU ÜÇBUCAĞIN ƏSLİNDƏ BAŞIAŞAĞI DAYANDIĞINI GÖSTƏRİR: ŞÖBƏLƏR ELƏ İLK ANDA BİRLİKDƏ VAR OLMUŞLAR, SONRA GETDİKCƏ SAYLARI AZALMIŞDIR".

(PHİLLİP E. JOHNSON, "DARWİNİSM'S RULES OF REASONİNG", DARWİNİSM: SCİENCE OR PHİLOSOPHY, FOUNDATİON FOR THOUGHT AND ETHİCS, 1994, S. 12.)





Prezident İlham Əliyevin Bakıda "İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin inkişafında qadınların rolu" mövzusunda keçirilən V Beynəlxalq konfransın iştirakçılarına ünvanladığı təbrik məktubundan.
20.10.2014



*“Qadın hüquqlarına xüsusi diqqət yetirən İslam dini qadın şəxsiyyətini layiqli mövqeyə yüksəltmişdir”*

# Elmi-texnoloji

## Yerdəki ən böyük meteorit kraterinin Avstraliyada olduğu kəşf edilmişdir

Endryu Qliksonun (Andrew Glikson) rəhbərliyi ilə Avstraliya Milli Universitetinin əməkdaşları Avstraliyanın Kvinslend, Cənubi Avstraliya və Şimal Ərazi ştatlarının sərhədlərində geotermik aktivliyin planlı tədqiqatını aparmışlar. Bu məqsədlə 3 km dərinlikdə qazıntılar aparılarkən güclü zərbənin təsirindən şüşəyə çevrilmiş dağ süxurlarının izlərinə rast gəlmişlər.

Sonrakı tədqiqatlarda bu nahiyədə zərbənin təsirindən eni 190 km olan və 30 km dərinliyə qədər nüfuz etmiş iki kraterin mövcudluğu aşkara çıxarılmışdır.

Zərbənin təsir dairəsi ümumi olaraq 400 km təşkil edir. Bu da alimlər tərəfindən bəzi növ canlı növlərinin, o cümlədən dinozavrların kütləvi tələfinə səbəb olduğu hesab edilən Meksikanın Yukatan yarımadasına düşmüş asteroidin zərbəsindən yaranmış Çiksulub kraterindən azı 4 dəfə böyükdür.

Alimlər hesab edir ki, Avstraliyada bu krateri əmələ gətirmiş asteroid 10 km diametrə malik olmuşdur və yerə düşməmişdən qısa müddət əvvəl iki hissəyə parçalanmışdır. E.Qlikson "The Guardian"a belə bildirib: "Bu həmin zamanda yaşamış bir çox canlı növünün sonunu gətirə bilərdi. Toqquşma dövrünə uyğun gələn tələfolmanı müəyyən edə bilmədiyimizdən bu, bizim üçün sirrdir". Asteroidin toqquşması ilə növlərin kütləvi tələfi arasındakı əlaqəni müəyyən etmək üçün isə ilk növbədə düşmə tarixi dəqiqləşdirilməlidir.

Qeyd edək ki, tədqiqatların nəticələri ətraflı olaraq "Tectonophysics" elmi jurnalında dərc edilmişdir.





# Xəbərlər

## Alimlər: neandertallar bəzək əşyaları taxırdılar

Ən son tədqiqatlar nəticəsində artıq məlum olmuşdur ki, təxminən 30-200 min il əvvəl yaşamış "neandertal" adlandırılan qədim insanlar nitqə sahib idilər, rəsmlər çəkirdilər, ölülərini dəfn edirdilər, əmək alətləri, silahlar düzəldirdilər.

Ən son tapıntılardan biri də 130 min il yaşında olan boyunbağıdır. Ağquyruq dəniz qartalının caynaqlarından hazırlanmış bu qədim boyunbağı bir daha sübut etdi ki, neandertallar inkişaf etmiş yaradıcı insanlar olublar. Xorvatiyanın Krapina rayonundan tapılmış bu arxeoloji tapıntı elmə 100 ildən çoxdur məlum olmasına baxmayaraq, üzərində ətraflı tədqiqatlar bu yaxınlarda aparılmağa başlanılmışdır.

Hazırda Kanzas Universitetinin Antropologiya fakültəsindən amerikalı antropoloq Devid Freyerlə (David Frayer) birgə Xorvatiyanın Zaqreb Təbiət Elmləri Muzeyinin və Dördüncü Dövr Paleontologiya və Geologiya İnstitutunun əməkdaşları tərəfindən boyunbağı üzərində araşdırmalar və analizlər davam etdirilir.

Kanzas Universitetinin rəsmi saytında yerləşdirilmiş xəbərdə bildirilir ki, boyunbağı üzərində aparılmış ən son tədqiqatlar onun neandertallar tərəfindən hazırlandığını sübut etməklə yanaşı, tapılmış hissələrin eyni boyunbağıya aid olduğu da təsdiq edilmişdir.

"The Daily Mail" xəbər portalında alimlərin məlumatına əsasən, qədim boyunbağı səkkiz qartal caynağından ibarət olduğu bildirilir. Onlardan dördü çərtilmiş, üç ən böyük olan caynağın enli hissəsində isə kiçik kəsiklər vardır. Tədqiqatçılar bu kəsiklərin caynaqlarda cilalama işlərinin aparıldığını göstərdiyini bildirmişlər.

Doktor D.Freyer: «Bu, doğrudan da, əla və gözlənilməz tapıntıdır. Bu, o qədər gözlənilməz və heyrətamiz haldır ki, indiyə qədər tapılan əşyaların içərisində belə dəyərli bəzək əşyası olmayıb», -deyərək öz heyranlığını bildirmişdir.

Bununla yanaşı, arxeoloqlar caynaqları əldə etmək üçün neandertalların ağırlığı 6 kq və qanad açıqlığı 2 metrə çatan yırtıcı quş olan ağquyruq dəniz qartalını necə ovladığı sualına cavab tapmaqda acizdirlər. Axı bu quşu ovlamaq üçün ibtidai hesab olunan neandertallar üçün xüsusi məharət tələb edir!

Kanzas Universitetinin rəsmi saytındakı xəbərdə doktor D.Freyerin bu tədqiqatların nəticələrinə işarə etdərək: "Neandertalların, adətən, küt, boş-boş deyinən, yöndəmsiz və sərsəm olduqlarını düşünürlər. Amma biz onlar haqqında nə qədər çox məlumatlanırıqsa, bir o qədər də onların inkişaf etmiş olduqlarına şahid oluruq", - qeyd etdiyi bildirilmişdir.

Araşdırmaların nəticələri "PloS One" elmi jurnalında (www.plosone.org) dərc edilmişdir.



# DÜNYANI

## SEVGİ XİLAS EDƏCƏK

Küçədə rast gəldiyiniz insanlara nəzər yetirin. Kim bilir, daxili aləmlərində nə baş verir, gülən üzlərinin arxasında nələr gizlənib, hansı çətinliklər, hansı problemlərlə mübarizə aparırlar? Şübhəsiz ki, hər kəsin bir-birindən fərqli problemləri, fərqli narahatlıqları, fərqli qayğıları var. Əksəriyyəti də xoşbəxt deyil.

Mənəvi dəyərlərin əhəmiyyətini itirdiyi, dostluq, qardaşlıq, şəfqət, mərhəmət kimi hisslərin unudulduğu, maddiyyatın ən önəmli güc halına gəldiyi dövrümüzdə üzümüzü hara çeviririksə-çevirək, tənhalıqdan gileylənən narazı insanlarla qarşılaşırıq. Dünya sözün əsl mənasında şiddət, nifrət, qəddarlıq və eqoistlik bataqlığına batmış haldadır. İstisnasız hər kəs münaqişələrin, mənfəətpərəstliyin, səmimiyyətsizliyin olmadığı, hər yerdə sülh, əmin-amanlıq və qardaşlığın hakim olduğu dünyanın həsrətindədir.

Dünyanı əhatə edən bütün bu pisliklərin mənbəyinə baxdıqda isə qarşımıza sevgisizlik çıxır. Sevgisizliyin səbəbi insanın özüdür. İnsanların daxilən yaşadığı sevgisizlik zəncirvarı şəkildə sürətlə bütün dünyaya yayılır.

Təkcə öz rahatlığını düşünən, «mən» mərkəzli dünyada yaşamağa öyrəşən bu insanların vicdanı sürətlə kütləşir. Qarşılarındakı insanı itirməkdən qorxmur, hətta yoxluğuna belə əhəmiyyət vermirlər.

Sanki yoluxucu xəstəlik kimi insanlar arasında yayılan bu eqoist ruh qısa müddət ərzində bütün cəmiyyətə sirayət edir. İnsanların acından ölməsi, dünyanın hər yerində müharibələrin olması, bazarların, məktəblərin, xəstəxanaların bombardman edilməsi bir çoxlarının vecinə olmur. Onlar həftə sonu necə əylənəcəyini, sosial şəbəkələrə hansı şəkilləri qoyacağını düşünməklə və şəkillərə yazılan şərhləri oxuyub «like» sayının artıb-artmadığını izləməklə məşğuldurlar.

Dünyanın bir çox ölkəsində gedən müharibə və münaqişələr, həmçinin güllə yarası almış yaxınını xəstəxanaya çatdırmağa çalışanların və ya acından bir dəri, bir sümük qalan uşaqların xəbəri onları heç narahat etmir. Vücudunun müxtəlif yerlərinə sevgi ilə bağlı gözəl sözlərdən ibarət

**Sevgisizliyin kökündə isə eqoistlik durur. İnsan ən çox özünü sevir; təkcə öz rahatlığını, öz komfortunu düşünür. Ətrafındakı heç kimə, heç bir varlığa sevgi və şəfqət gözü ilə baxmır. Tək düşündüyü isə budur: kim mənə fayda verə bilər? Beləliklə, qarşısındakı insana ancaq mənfəət gözü ilə baxır. Hər kəs onun üçün əmək sərf etsin, hər kəs onun üçün nə isə etsin. Sevməsin, amma sevilsin. Diqqət görsün. Xəta və qüsurları görməzlikdən gəlinsin. Amma o heç kimə əmək sərf etməsin, heç kimi bağışlamasın, heç kimə səbir göstərməsin, heç kim üçün fədakarlıq etməsin. Heç kimə görə rahatlığından keçməsin...**





tatuirovka vurdurur, sosial şəbəkə hesablarında yenə sevgi ilə bağlı sözlər paylaşır, amma o yazıların mənasını heç düşünmür, tələblərini yerinə yetirmirlər. Buna baxmayaraq, bundan zərər çəkən yenə özləri olur. Ətrafında bir çox insan olsa belə, həyatının sonuna qədər bədbəxt, narahat və tənha yaşayırlar.

Halbuki dünyanı yandırıb-yaxan bu böyük bəla asanlıqla aradan qalxa bilər. Bu isə ancaq Allah qorxusu və gözəl əxlaqla mümkündür. Belə ki, Allah qorxusu və gözəl əxlaq olmadan sevginin yaşanması mümkün deyil. Çünki sevginin şərtləri və sevgini bəsləyən meyarlar yalnız Allah qorxusuna əsaslanan vicdan və gözəl əxlaqla mümkün ola bilər. Fədakarlıq, səbir, bağışlayıcılıq kimi... Bu xüsusiyyətlərindən biri olmasa, əsl sevgi yaşanmır. Məsələn, bağışlayıcılıq olmasa, sevgi olmur. Səbir olmasa, sevgi zaman keçdikcə yox olub gedir. Fədakarlıq olmasa, yenə də sevgi ölür. Sevgi sanki bir çox kiçik çarxın bir yerə gəlməsi ilə meydana gələn saat kimidir. Kiçik çarxlardan biri işləməsə, böyük çarx fırlanmır. Sevgi də belədir.

Qısası, sevginin təməlini meydana gətirən mühiti ancaq çox güclü Allah qorxusu və gözəl əxlaq təmin edir. Çünki insanın eqoist hissləri Allah qorxusu və gözəl əxlaqla cilovlanır. Sevgisiz və eqoist hisslər ancaq Allahdan qorxub səbir və etina ilə gözəl əxlaq göstərildikdə aradan qalxır. Əks təqdirdə, insan kabus kimi həyat yaşamağa məhkum olur. Qəlbindəki eqoistliyin qarşılığında eqoistlik görür və əsl sevginin və qardaşlığın nə olduğunu heç vaxt bilmir.

Halbuki sevgi hər kəsin qəlbində var. Hər kəsin ruhunda sevgiyə yer var. Sevgisiz dünyanın heç kimə faydası yoxdur. İnsanları düşdüyü bu qaranlıq dünyadan çıxartmağa çalışmaq, sevgi və gözəlliyin ruha verdiyi rahatlıqdan bəhs etmək hamımızın vəzifəsi olmalıdır.





# Nümunəvi Quran nəsli formalaşdırmağın əhəmiyyəti

**İçərinizdə yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun! Bunlar, həqiqətən, nicat tapmış şəxslərdir. (Ali-İmran surəsi, 104)**

Bir çox insanlar özlərinə başqa birisini örnək alır və ona bənzəməyə çalışırlar. Hətta danışıq və hərəkətlərinə qədər o şəxsi təqlid edir, həyat tərzinə pərəstiş edirlər. Lakin bu nümunələrin ya hamısı bir çox yöndən əksik olur, ya da tamamilə insanları yanlış yola sürükləyən əxlaq və anlayışa sahib olur. İnsanlar üçün əxlaq və davranış baxımından ən gözəl nümunə Peyğəmbərimiz hz. Muhəmmədir (səv). Peyğəmbərimizin (səv) üstün əxlaq və davranışının qaynağı isə Qurandır. Peyğəmbərimiz (səv) və ətrafındakı möminlər Quranı özlərinə rəhbər tutan, Quran əxlaqı ilə əxlaqlanan, Allah`dan şiddətlə qorxan və Onu dərin sevgi ilə sevən vicdanlı insanlardır.

Allah iman edənləri **"Yer üzünün varisləri" (Ənam surəsi, 165)** vəsfi ilə şərəfləndirmiş, onlara həm bu

dünyada, həm də axirətdə izzət və şərəf vermişdir.

Peyğəmbərimizin (səv) idarəsində olan cəmiyyətlərdə hüzur, xoşbəxtlik, güvənlik, ədalət, sevgi, dostluq, qardaşlıq, şəfqət, mərhəmət və fədakarlıq kimi əxlaqi ünsürlər ən mükəmməl səviyyədə yaşanmışdır. Necə ki, bu dövr tarixdə “Səadət əsri” olaraq adlandırılmışdır. Allah ixlaslı möminlərin dünya həyatında alacağı qarşılığı belə müjdələmişdir:

**Mömin olub yaxşı işlər görən kişi və qadına xoş həyat nəsib edəcək və etdikləri yaxşı əməllərə görə mükafatlarını verəcəyik. (Nəhl surəsi, 97)**

Bu səbədən, Quran və Peyğəmbərimizin (səv) sünnəsi əsasında düşünən, hökm edən, danışan və qərar verən bir nəslin yetişməsi son dərəcə önəmlidir. Peyğəmbərlərin əxlaqını özünə örnək götürən, sadəcə Allah`ın rizasını hədəf alan bu saleh müsəlman cəmiyyətinin xüsusiyyətləri Quran ayələrində təfsilatı ilə açıqlanmışdır. Onların bəzi özəllikləri bunlardır:

**Yalnız Allah`a qulluq edirlər (Fatihə surəsi, 5)**
**Allah`ı hər şeydən çox və ürəkdən sevirlər (Bəqərə surəsi, 165)**
**Allah`a təslim olublar (Tövbə surəsi, 51)**
**Allah`a qarşı aciz olduqlarını bilirlər (Cin surəsi, 22)**
**Allah`dan qorxurlar, Onun bəyənmədiyi əxlaqdan şiddətlə çəkinirlər (Rəd surəsi, 21)**
**Hər şərt və vəziyyətdə Allah`a şükür edirlər (Bəqərə surəsi, 172)**
**Anlayışlı, sevimli və əfvedicidirlər (Hicr surəsi, 85)**
**Təvazökardırlar (Furqan surəsi, 63)**
**Mərhəmətli və həlim xasiyyətlidirlər (Tövbə surəsi, 128)**
**Yaxşılığı əmr edib pislikdən çəkindirməyə çalışırlar. (Ali-İmran surəsi, 104)**
**Birlik və bərabərlik tərəfdarıdırlar (Səf surəsi, 4)**
**Günahkarlara əsla arxa çıxmır, daim haqq**



quranrehberdir.imanisaytlar.com



və ədaləti müdafiə edirlər (Nisa surəsi, 105 və 58)

Heç kimin haqqını yemirlər (Şüəra surəsi, 184)

Sözlərinə sadiqdirlər (Bəqərə surəsi, 177)

Boş şeylərdən üz çevirir, həmişə faydalı iş görürlər (Furqan surəsi, 72)

Səbirlidirlər, çətinlikdən qəti qorxmazlar (Ali-İmran surəsi, 146, Hud surəsi, 55)

Güvənilən və cəsurdurlar (Yunis surəsi, 71)

Dinlərinə bağlıdırlar (Əraf surəsi, 89)

Fikirlərini zorla qəbul etdirməzlər, qarşılıqlı danışıb izah edərlər (Nəhl surəsi, 125)

Gördükləri işlərə görə mənfəət güdmürlər (Şura surəsi, 23)

Haqqı söyləməkdən çəkinmirlər (Maidə surəsi, 54)

Sənətdən və estetikadan zövq alırlar

Təəssüb və xurafata qarşıdırlar

Yuxarıdakı vəsfləri daşıyan bir nəsil hazırda dünyanın bir çox yerində yaşanan əxlaqi degenerasiyanın, savaşların, bəlaların, hiylə və saxtakarlıqların, sıxıntıların, zülmlərin və səfalətin yox olub yerini sülh, güvənlik, ədalət, hüzur və qardaşlığın almasının təminatı olacaq. Çünki Quran əxlaqı bütün insanlığa maddi və mənəvi zənginlik, gözəllik və aydınlıq gətirir. Quran əxlaqının yayılması ilə yer üzündəki bütün problemlər qısa bir zamanda



həllini tapar.

**Allah Quranda “Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə (islama) gəlin! Şeytanın yolu ilə getməyin, çünki o, sizin açıq düşməninizdir!” (Bəqərə surəsi, 208) şəklində buyurub insanları Quran əxlaqını yaşamağa çağırır.**

Cəmiyyətlərinin batil adətlərinin və öyrəndikləri yanlış bilgilərin ardınca getməyib dinin gerçək qaynağı olan Quran və sünnəyə tabe olanlar, ayədə də bildirildiyi kimi, İslama girmiş olacaqlar. Əks təqdirdə, bir çox batil inanclara malik, öz nəfs və istəkləri ilə yaşayan, kiçik hədəflərin ardınca gedən, xurafatçı, qorxaq, özünə güvənməyən, dar düşüncəli, cahil, dinə inanmayıb mistik xəyallarla inancını qorumağa çalışan, ağılsız, bəsirətsiz, yanlış mühakiməli, din əxlaqına uyğun olmayan prinsiplərin altında əzilən, əxlaqsızlıqda hədd tanımayan cəmiyyətlər meydana gələcəkdir. Əlbəttə, belə şəxslərdən ibarət bir cəmiyyətdə anlayışlı, aydın, mədəni, hüzurlu və güvənli bir həyatın yaşanmayacağı açıq bir həqiqətdir.

Buna görə də doğrudan iman edən hər insan özünə səmimi bir iman nəsib etdiyi, özünü hidayətə çatdırdığı, Peyğəmbərimizi (səv) tanımaqla şərəfləndirdiyi üçün Allah`a şükür etməlidir. Bunun ən gözəl şükürünü Quranla xəbər verilən əxlaqa tam tabe olmaqla və Peyğəmbərimizin (səv) təqib etdiyi yolu izləməklə göstərməlidir. Əks halda, Allah`a qarşı nankor davranmış olar. Bunun qarşılığı isə axirətdə böyük əzab ola bilər.



# ATIN TƏKAMÜLÜ NAĞILI




Məməlilərin mənşəyi mövzusunda əhəmiyyətli bir yer tutan başlıq çoxdandır ki, təkamülçü mənbələrin baş tacı etdikləri "atın təkamülü" əfsanəsidir. Bu bir əfsanədir, çünki elmi tapıntılara deyil, xəyal gücünə əsaslanır.

«Atın təkamülü»nü simvollaşdırdığı iddia edilən sxemlər yaxın vaxtlara qədər təkamül nəzəriyyəsinə sübut olaraq göstərilən fosil siyahısının ən başında yerləşirdi. Halbuki bu gün bir çox təkamülçü atın təkamülü ssenarisinin etibarsızlığını qəbul edir. 1980-ci ilin noyabr ayında Çikaqo Təbiət Tarixi Muzeyində 150 təkamülçünün iştirak etdiyi dörd gün davam edən və mərhələli təkamül nəzəriyyəsinin problemlərinin müzakirə olunduğu bir iclasda təkamülçü Boys Rensberqer atın təkamülü ssenarisinin fosil qeydlərində heç bir dayağı olmadığını belə açıqlamışdır:

*Təxminən 50 milyon il əvvəl yaşamış dörd dırnaqlı, tülkü böyüklüyündəki canlılardan günümüzdəki daha böyük tək dırnaqlı ata doğru mərhələli dəyişiklik olduğunu göstərən məşhur atın*

*təkamülü nümunəsinin etibarsız olduğu çoxdandır ki, elmə məlumdur. Mərhələli dəyişiklik yerinə, hər növün fosilləri tamamilə fərqli olaraq ortaya çıxır, dəyişmədən qalır, sonra da nəsli tükənir. Ara formalar bilinmir. (Boyce Rensberger, Houston Chronicle, 5 noyabr 1980, bölmə 4, s. 15.)*

Rensberqer dürüst bir yanaşma ilə atın təkamülü ssenarisindəki bu əhəmiyyətli problemi dilə gətirərkən əslində bütün nəzəriyyənin fosil qeydlərindəki ən böyük çətinliyi "ara keçid formaları çətinliyi"ni gündəmə gətirmişdir.

Bəs «atın təkamülü» ssenarisinin mənbəyi nədir? Bu ssenari Hindistan, Cənubi Amerika, Şimali Amerika və Avropada fərqli zamanlarda yaşamış, fərqli növ canlılara aid fosillərin təkamülçülərin xəyal gücləri istiqamətində kiçikdən böyüyə doğru düzülməsi ilə yaradılan sxemlərlə ortaya atılmışdır. Fərqli tədqiqatçıların önə sürdüyü 20-dən artıq atın təkamülü sxemi vardır. Hamısı da bir-birindən fərqli olan bu nəsil ağacları haqqında təkamülçülər arasında da fikir birliyi yoxdur. Bu siyahıdakı tək ortaq cəhət 55 milyon il əvvəlki Eosen dövründə yaşamış Eohippus (Hyracotherium) adlı itə bənzər bir canlının atın ilk əcdadı olduğuna inanılmasıdır. Halbuki atın milyonlarla il əvvəl yox olmuş əcdadı olaraq təqdim edilən Eohippus hələ də Afrikada yaşayan və atla heç bir əlaqəsi və oxşarlığı olmayan daman(Hyrax) adlı heyvanın demək olar ki, eynisidir.

***Atın təkamülü sxemləri haqqında Amerika Təbiət Tarixi Muzeyindən məşhur təkamülçü paleontoloq Naylz Eldric də hələ İngiltərə Təbiət Tarixi Muzeyinin zirzəmisində duran bu sxem haqqında bunları söyləyir:***

***Həyatın təbiəti haqqında hər biri bir-birindən xəyali bir çox pis hekayələr mövcuddur. Bunun ən məşhur örnəyi isə bəlkə 50 il əvvəl hazırlanmış və hələ də zirzəmidə olan atın təkamülü sərgisidir. Atın təkamülü bir-birini izləyən yüzlərlə elmi mənbə tərəfindən böyük bir həqiqət kimi təqdim edilmişdir. Lakin indi bu tip iddiaları ortaya atan insanların etdikləri təxminlərin yalnız fərziyyə olduqlarını düşünürəm. (Harper's Magazine, fevral 1985, s. 60.)***

(Francis Hitching, The Neck of the Giraffe: Where Darwin Went Wrong, Ticknor and Fields, New York, 1982, s. 30-31.)

Atın təkamülü iddiasının etibarsızlığı hər keçən gün ortaya çıxan yeni fosil tapıntıları ilə daha aydın şəkildə anlaşılır. Eohippus ilə eyni təbəqədə dövrümüzdə yaşayan at cinslərinin də (Equus nevadensis və Equus occidentalis) fosilləri tapılmışdır. (Yenə orada) Bu, dövrümüzdəki at ilə onun "əcdadının" eyni zamanda yaşadığını göstərir ki, atın təkamülü iddia edilən həmin mərhələnin heç vaxt yaşanmadığının sübutudur.

Təkamülçü yazar Qordon Teylor darvinizmin açıqlaya bilmədiyi mövzulara toxunduğu "The Great Evolution Mystery" (Böyük təkamül sirri) adlı kitabında at silsilələri əfsanəsinin əslini belə izah edir:

Darvinizmin bəlkə də ən ciddi zəifliyi paleontoloqların böyük təkamül dəyişiklikləri göstərəcək qohumluq münasibətlərini və canlı təsnifatını ortaya qoya bilməmələridir... At silsiləsi ümumiyyətlə bu mövzuda həllə qovuşdurulmuş yeganə nümunə kimi göstərilir. Lakin həqiqət budur ki, Eohippusdan Equusa qədər uzana siyahı çox əsassızdır. Bu siyahının getdikcə artan bir bədən böyüklüyünü göstərdiyi iddia edilir, amma əslində siyahının ilk sıralarına qoyulan canlıların bəziləri (siyahının ən başında yerləşən) Eohippusdan daha böyük deyil, daha kiçikdirlər. Fərqli mənbələrdən gələn növlərin bir yerə gətirilib qane edici bir görüntüyə sahib olan bir sıralamada ard-arda düzülmələri mümkündür, amma tarixdə həqiqətən bu sıralama içində bir-birlərini izlədiklərini göstərən heç bir sübut yoxdur. (Gordon Rattray Taylor, The Great Evolution Mystery, Sphere Books, London, 1984, s. 230.)

Bütün bu həqiqətlər təkamül nəzəriyyəsinin ən böyük dəlillərindən birisi kimi təqdim olunan atın təkamülü sxemlərinin heç bir əsası olmayan xəyali sıralamalar olduqlarını ortaya qoyur. Digər növlər kimi atlar da təkamülləşmiş bir əcdada sahib olmadan mövcud olublar.



# İman uşağın qəlbinə yerləşdirilsə, həm dünyası, həm də əbədi axirəti xilas olar...

Gözlə görünməyən kiçik hüceyrə doqquz ay boyu ana bətnində möhtəşəm yaradılışla ağıllı, ruhu olan insana çevrilir. Bu yaradılışın hər mərhələsini izləyən ana və ata həyəcanla körpəni qucaqlarına alacaqları günü gözləyirlər. Körpə damarlarından ürəyinə, əllərindən beyninə, əzələlərinə və trilyonlarla hüceyrəsinə qədər Allah tərəfindən böyük sənətlə inşa edilir. Doğuşla birlikdə ana və ata həyatlarının sonuna qədər qoruyacaqları, göz bəbəkləri kimi baxacaqları övladlarına qovuşur, onu sevgi ilə qucaqlarına alırlar. Allah ayəsində bu prosesi belə tərif edir:

**Ey insanlar! Yenidən diriləcəyinizə şübhə edirsinizsə, (bilin ki,) həqiqətən də, Biz sizi torpaqdan, sonra nütfədən, sonra laxtalanmış qandan, daha sonra tam bir şəklə salınmış və ya salınmamış bir parça ətdən yaratdıq ki, (qüdrətimizi) sizə bəyan edək. Bətnlərdə istədiyimizi müəyyən bir vaxt ərzində saxlayırıq. Sonra sizi uşaq kimi çıxardırıq ki, yetkinlik çağına yetişəsiniz... (Həcc surəsi, 5)**

Ata-ana körpəni qucaqlarına aldıqda onu Allah`a həsr etməli və onu imanla, Allah sevgisi ilə, Allah qorxusu ilə yetişdirməlidirlər. Çünki o uşaq bu dünyada ancaq 60-70 il yaşayacaq və ölümü ilə əbədi həyatına gözlərini açacaq. Bu səbəbdən, uşağın Allah`a imanla, Quranla, Quran əxlaqı ilə yetişdirilməsi, beləcə, Rəbbini tanıması, qəlbinin imanla dolması, ürəyinin Allah sevgisi ilə döyünməsi önəmlidir. Hər ailə daima iman həqiqətlərini danışaraq, Allah`ın bütün kainatı xüsusi yaratdığını göstərərək, bütün qulların Allah qarşısında məsuliyyət daşıdığını öyrədərək uşağını yetişdirməlidir. Uşaq, beləcə, onu yaradan Rəbbini - hər zaman yanında olan əsl Dostunu çox yaxşı tanıyar.

Uşaqlarını böyüdərkən ata-ana daima Quranı əsas götürməlidir. Quran daima evdə oxunmalıdır, bu minvalla, ayələr yadda qalıb həyata keçirilməlidir. Yanında daima Quran oxunduqda uşağın ruhu sakitləşir. Quran əxlaqı yavaş-yavaş xarakterinə təsir etməyə başlayır. Bu zaman ata-ana uşaqlarına qədəri, təvəkkülü, bağışlamağı, səbir etməyi, öz haqqından keçməyi, təvazökarlığı, mərhəməti, şəfqəti, paylaşmağı, fədakarlığı yaxşı öyrətməlidir. Bunun nəticəsində, uşağın ruhu hələ kiçik yaşda tərbiyə olunar və həyatı boyu qarşılaşdığı müxtəlif imtahanlarda güclü olar. İxlası, səmimiyyəti və imanı sayəsində Rəbbinin daima yanında olub onu gördüyünü və sınadığını bilər.

Şübhəsiz ki, uşağın tərbiyəsi bütün həyat boyu davam edən prosesdir və ata-ana ixlasla, bezmədən uşağını imanlı yetişdirmək üçün ciddi səy göstərməlidir. Ailə hər sahədə uşağa nümunə olmalı, hər hadisədə, hər imtahanda, sıxıntıda, darlıqda, çətinlikdə, xəstəlikdə və bolluqda daima Allah`ın və Quranın tərəfində olmalıdır. Dünya həyatında başına gələn hadisələrə xeyir gözü ilə baxan ailə uşağa gözəl nümunə olar.

Bir uşağın hələ kiçik yaşda dərin Allah sevgisi ilə yetişdirildiyini düşünün. Heç tək olmadığını, ən güclü dostu olduğunu bilir. Qədərin, imtahanın və dünyanın müvəqqəti olduğunu dərk edir. Allah sevgisi və Allah qorxusu ilə hərəkət edir, daima Quran əxlaqına uyğun davranır. Bu uşağın nə qədər güclü ağlı, şəxsiyyəti və dərin imanı olacağı açıq deyilmi? Ata-ana uşağına bundan daha



böyük xeyir verə bilərmi? Uşaq elə güclü səmimiyyətlə və ixlasla yetiş-dirilməlidir ki, onu yaradan əsl Dostuna üz tutaraq şövqlə, dərin sevgi ilə ibadətlərini yerinə yetirsin. Uşağa ibadətlər vəzifə məntiqi ilə deyil, Rəbbə duyulan dərin sevginin, şükürün göstəricisi kimi izah edilməlidir. İbadətlərlə yanaşı, hər etdiyini Allah üçün etmək, Allah üçün yaşamaq, şirkdən cidd-cəhdlə çəkinmək, israf etməmək, daima şükür etmək uşağa öyrədilməlidir. Uşağın qəlbi Quranla o qədər dolu olmalıdır ki, uşaq baxdığı hər yerdə Rəbbini görməli, qarşısına gələn hər nemətə görə Ona şükür etməli, yer üzündə və göydə Rəbbinin dəlillərini görüb şükürlə səcdə etməlidir.

Ata-ana uşaqlarını təbii ki, ən yaxşı təhsil müəssisələrində oxutmalıdırlar, ən yaxşı təhsili almasını, yaxşı peşə sahibi olmasını təmin etməlidirlər. Ancaq bütün bunları edərkən əsl məqsəd dünyanı deyil, uşağın axirətini qazanmaq olmalıdır. Uşaq bu dünyada çox yaxşı universitetə, bir neçə xarici dil bilməyə, yaxşı karyera qurmağa deyil, Allah`a qul olmağa gəldiyini bilməlidir. Bütün bunlar- karyera, pul, dünyada əldə edilən mal-mülk- yalnız dünya həyatında dəyərlidir. Ancaq uşaq imanlı olmasa, Allah üçün yaşamasa, ölümdən sonrakı əbədi həyatına hazırlaşmasa, axirətdə bunların heç bir mənası olmaz. Ona görə, ailə uşağına mütləq axirət həyatı üçün çalışmağı öyrətməli, hamımızın əsl yurdu olan əbədi həyata qovuşacağımızı ruhuna təlqin etməlidir. Uşaq üçün dünya həyatı deyil, daima Rəbbinin rizasını və Cənnətini qazanmaq əsas olmalıdır.

**Sizə verilən hər şey ancaq dünya həyatının keçici zövqü və onun bərbəzəyidir. Allah yanında olanlar isə daha xeyirli və daha sürəklidir. Məgər başa düşmürsünüz? (Qasas surəsi, 60)**



Uşaq səmimi, Allah sevgisi və Allah qorxusu ilə yetişdirildikdə bütün həyatı boyu Allah`a yaxşı qul olmaq üçün cəhd edər. Quran əxlaqı ilə ruhunu gözəlləşdirib, tərbiyə edib arxayın nəfsə qovuşar. Allah üçün bağışlayar, Allah üçün səbir edər, Allah üçün malından sərf edər. Qarşılaşdığı hər imtahanı dərin imanı ilə asanlıqla keçər, axirəti istədiyi üçün dünya həyatında başına gələn çətinliklər ona təsir etməz. Həyatının hər günü qədərini yaşadığını dərk edərək rahat olar. Ən əsası, daima yaxşı işlər gördüyü üçün Allah`ın razı qaldığı qul olmağa ümid edərək Cənnətə girməyi böyük şövqlə gözləyər. Şübhəsiz ki, belə ixlasla yetişdirilən insan Cənnətə getdikdə ana-anasından əbədiyyən razı qalar. Çünki onlar onu imanla və Allah sevgisi ilə tanış edərək ən böyük hədiyyəni veriblər. Əbədiyyən cənnətdə birlikdə olmaq, Allah`a daima şükür edərək sevinc içində qarşılıqlı taxtlarda oturmaq, Cənnət bağçalarında qarşılanmaq həm ata-ananın, həm də övladlarının ən böyük mükafatıdır...

# Cinayətkarı tapan DNT



Bir çox elmi mövzunun tarixən çox qədimlərə gedib çıxdığını düşünürük. Halbuki elmi kəşflərin bir qismi, xüsusilə insan DNT-si ilə bağlı məlumatların tarixi o qədər də qədim deyil. Demək olar ki, bir çoxu yaxın keçmişdə edilmiş kəşflərdir.

Məsələn, DNT-nin nukleotid ardıcıllığı 1987-ci ildə Lester Universitetində biokimya professoru Alek Ceffris tərəfindən kəşf edilmişdir.

Tarixdə ilk dəfə hüquqi ekspertiza DNT vasitəsilə cinayətkarı müəyyən edə bilmişdir.

Qlobin zülalı üzərində tədqiqat aparan Ceffris bu tədqiqat zamanı nukleotid ardıcıllığının insandan-insana barkod sistemi kimi fərqləndiyini, hər kəsin DNT-sinin özünəməxsus sistem olduğunu müəyyən etmişdir.

Bu yolla səhv etmə riski, demək olar ki, qalmamış və əsl cinayətkarlar bir-bir tapılmağa başlamışdı. Çünki DNT izi (nukleotid ardıcıllığı) 99,99% ehtimalla bizə düzgün məlumat verir. Heç kimin DNT izi başqasının DNT izi ilə eyni deyil.

Bu metodla hər canlının xüsusiyyətini öyrənmək mümkündür. Məsələn, haqqında heç bir məlumatımız olmayan 5 ədəd qan nümunəsinin DNT-sindən bunların hansı canlılara aid olduğunu müəyyən etmək mümkündür.

Quş, pişik, insan, balıq, dovşan. Qan nümunələri bizə məlumatları dərhal verir. Ona görə, hər hansı qan nümunəsinin kimə aid olduğunu dərhal öyrənə bilirik.

Bu məlumatları saç teli, tük, kəpək, dəri, qan, tüpürcək, ağız hüceyrələri, dırnaq vasitəsilə də asanlıqla əldə etmək mümkündür. Bir neçə saat ərzində avtomatik cihazlarla DNT izi çıxarma prosesi asanlıqla həyata keçirilir. Hətta 300 min il əvvəldən qalmış mumiyanın DNT-sindən belə DNT izini əldə etmək mümkündür.

Bir tük kökü bizim üçün çox kiçik hissədir, ancaq mikro səviyyədə bir tük kökündə minlərlə hüceyrə yerləşir. Bir hüceyrənin DNT-sindən isə insanın kim olduğunu öyrənə bilirik. Bu, Allah`ın yaratdığı möcüzədir.

Məsələn, 1953-cü ildə DNT spiralını ilk dəfə kəşf edən Uotson öz DNT-sini təhlil etmiş və soyunun Afrikadan gəldiyini öyrəndikdə təəccüblənmişdi.




Bu tədqiqatda əsasən, yanağın daxili tərəfindəki mukoz hüceyrələrindən istifadə edilir. Hüceyrələrin membranı parçalanaraq DNT üzə çıxarılır. Bunun üçün toz halda məhluldan və DNT-nin sarındığı zülalları parçalayan fermentlərdən istifadə edilir. Bu proses 1-2 saat davam edir. Keyfiyyəti yoxlamaq üçün həyata keçirilən bir növ nəticəni təsdiqləmə prosesi isə 2-3 saat əlavə vaxt tələb edir.

Əldə az miqdarda DNT varsa, bunu çoxaltmaq da mümkündür. Məsələn, bir tükdən əldə edilən DNT kifayət etməsə, bunu çoxaltmaq üçün 2-3 saat davam edən polimeraz zəncirvarı reaksiyası (PCR) metodundan istifadə edilir. PCR ilə çoxaldılan DNT molekulları 2-3 saat davam edən elektrofrez metodu ilə elektrik sahəsində hərəkət etdirilirlər. Yəni bir cihaz hər kəsdə fərqli olan nukleotid ardıcıllığındakı A, T, Q və S molekullarını oxuyur. Nəticədə, mütəxəssislər insanın DNT izini təhlil edir, onun barkodunu çıxarırlar.

Bir DNT-nin qoyduğu diaqnozu biz əsla edə bilmərik. Bir DNT-də insana və canlıya aid ensiklopediyalar dolusu məlumat qeyd olunmuşdur.

Əlimizdə 1000 illik kəllə sümüyü olduğunu fərz edək. Bir kəsə: "Bu insanın qaşı, göz rəngi, saç rəngi, boyu haqqında bizə doğru məlumat ver", -deyək. Buna kimsə doğru cavab verə bilməz. Gözlə belə görünməyən DNT-nin içində isə həmin insana aid hər cür məlumat var.

Bu, Allah`ın yaratma sənətinin nümunələrindən biridir. Allah`ın yaratma sənətinin dəlillərini yaradılan hər şeydə görürük. Allah yaratdığı şeylərdə üstün Yaradanın mövcud olduğuna dair insanları düşündürən işarələr şifrləmişdir. Kainatda mövcud olan hər şey bizə Allah`ın varlığını sübut edir. Heç nəyin təsadüfən öz-özünə əmələ gəlməsinin mümkün olmadığını alimlər çox yaxşı bilirlər.

İnsanların bir qismi bir kəşf etdikdə, haşa, bunu Allah`dan müstəqil hadisə kimi qiymətləndirir və təkəbbürlənirlər. Halbuki Allah insanlara elminin sirlərini açır. Allah insanlara bu sirləri açmağa izin verir. Kainatdakı bütün qanunları, hər elmi yaradan Allah`dır və izin verdiyi ölçüdə yaratdığı qanunların, elmlərin sirlərini qullarının xidmətinə verir.

Mənbə: Bilim ve Teknik jurnalı, TÜBİTAK, May 2014.

*"Ali-İmran" surəsinin 18-ci ayəsində Rəbbimiz: "Allah Özündən başqa heç bir tanrı olmadığına şahiddir. Mələklər və elm sahibləri də haqqa-ədalətlə boyun qoyaraq o qüvvət, hikmət sahibindən başqa ibadətə layiq heç bir varlıq olmadığına şəhadət verdilər", -buyurur.*

# YANLIŞ matəm anlayışı

Ölüm hadisəsi olduqda günlərlə yas tutmaq, gülməmək, sevincə dair hər şeyi həyatdan çıxarmaq cahiliyyə adətidir. Müsəlmanlar üçün ölüm dünyadakı imtahanın sona çatması, həqiqi yurd olan axirətə keçid və ən əsası, Rəbbimizə qovuşmaqdır. Bu səbəbdən, müsəlmanlar birisi öldükdə yas tutmazlar. Əksinə, sevdikləri insanın Allah`a qovuşmasına görə sevinər və: "İnşaAllah, Rəbbim ondan razı olmuşdur", -deyə dua edərlər. Matəm qədərdəki hikməti dərk etməyən, qədərə könüldən təslim olmayan, Allah`ın yaratmasındakı gözəllikləri görməyən, dünyanın müvəqqəti olduğunu bilməyən insanların batil adətidir.

Odur ki, ölüm hadisəsi olduqda müsəlmanlar bir-birinə yas tutmağı, kədərlənməyi, qəmgin olmağı tövsiyə etməzlər, əksinə, gözəl səbiri, Allah`ın qədərdə təqdir etdiyi hadisəni sevinclə qarşılamağı tövsiyə edərlər. Çünki yas tutmaq, haşa, Allah`ın müəyyən etdiyi qədərdən narazı olmaq deməkdir. Yas tutmaq, haşa, Allah`ın yaratdığına üsyan etmək deməkdir.

"Suriyada, Fələstində, Misirdə insanlar ölərkən siz necə əylənirsiniz?" -deyən bəzi insanlar bu həqiqəti unudurlar. Suriyada, Misirdə, İraqda və dünyanın hər hansı yerində baş verən ölümlərə görə müsəlmanlar yas tutmalı deyil, bu zülmün aradan qalxması üçün cəhd etməlidirlər. Bu cür tənqid edən insanların özləri də -dünyadakı zülmə baxmayaraq- toylarda əylənir, televiziya proqramlarına baxaraq gülür, filmlərə, teleseriallara baxaraq əyləncəli vaxt keçirirlər.

Mömin üçün ölüm son deyil. Yeganə gerçək sevgilisi və dostu olan Allah`a qovuşmaqdır. Mömin öz ölümünü necə sevinclə qarşılayırsa, sevdiyi insanın ölümünü də sevinclə qarşılayar. Ölümlərə görə kədərlənmək inancı isə cahiliyyəyə aiddir. Allah`ın gücünü, qüdrətini layiqincə dərk etməyən insanlar ölümün hikmətini də



qavramırlar. Ölümü yox olma hesab etdiklərinə görə kədərlənirlər.

Bu səbəbdən, cahiliyyə cəmiyyətində və xüsusilə qədim bütpərəst xalqlarda batil matəm adəti var.

Məsələn, qədim Misirdə bir insan öldükdə ölünün evinin qadınları başlarına, üzlərinə palçıq sürtər, paltarlarını bədənlərinə iplə sarıdıqdan sonra çılpaq sinələrini döyərək gəzərdilər. Buna bənzər adətlər assurlarda, farslarda, yunanlarda və romalılarda da var idi. Yəhudilikdə də matəm adətləri arasında paltarı cırma, yerdə oturma, başa kül səpmə, külün üstündə yatma, bədəni kəsmə, saç yolma, ağlayıb özünü döymə kimi adətlər vardı. Bəzi xalqlar isə ağlamaq üçün xüsusi adamlar tutur, bu adamlar günlərlə ağlayırdılar.

Məkkəli müşriklər də ölən adam üçün yas tuturdular. Peyğəmbərimiz (səv) yas tutmağı müsəlmanlara qadağan etmişdir.

*İbn Abbas (rə) rəvayət edir: "Rəsulullah (səv) buyurdu: "YAS TUTMAQ CAHİLİYYƏ ADƏTLƏRİNDƏN BİRİDİR..."*

*İbn Ömər (rə) rəvayət edir: "Rəsulullah "YANINDA YÜKSƏK SƏSLƏ AĞLAYAN BİR QADIN OLAN CƏNAZƏNİN ARXASINCA GETMƏYİ QADAĞAN ETDİ".*

*Cərir Mövla Müaviyyə rəvayət edir: "Hz. Müaviyə (rə) Xumusda xalqa xütbə verdi və xütbəsində Rəsulullahın yas tutmağı qadağan etdiyini xatırlatdı".*

Rəsulullahın (səv) oğlu İbrahim vəfat etdikdə qısa anlıq ağlaması isə onun şəfqət və mərhəmətinin təcəllisidir. Peyğəmbərimizin (səv) bu gözəl əxlaqını yanlış anlayıb cahilliklə müşrik adətlərini davam etdirmək istəyənlər yanılırlar.

***Biz, həqiqətən də, hər şeyi qədər ilə yaratdıq. (Qəmər surəsi, 49)***

***Allah istəməyincə, siz istəyə bilməzsiniz! Həqiqətən, Allah Biləndir, Müdrikdir! (İnsan surəsi, 30)***

***... Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru (şey) yoxdur ki, açıq-aydın Yazıda olmasın. (Ənam surəsi, 59)***

***Allah`ın izni olmadan (heç kəsə) bir müsibət üz verməz. Hər kəs Allah`a iman gətirsə, Allah onun qəlbini haqqa yönəldər. Allah hər şeyi bilir. (Təğabun surəsi, 11)***



*Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar, dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə Allah dərgahındadır. (Ali-İmran surəsi, 14)*

# Gözəllik, karyera, pul və ardınca məzar...

Milyonlarla insan düşünün, bu dünyaya tək, heç nəyi olmadan gözlərini açırlar. Hamısı eyni dalanın başında təkbaşına durur, baxır, baxır, ancaq yolun sonunu heç cür görə bilmirlər. İnsan dalanın başında durub yolun sonunu görə bilməzmi? Ancaq görə bilmir, heç cür qavramır. Bu dalanın sonunda milyonlarla insan üçün gözləyən ölüm var və ölümdən sonra hər kəsin girməsi üçün hazırlanmış məzarlar. Bu məzarlar o insanların çürümüş bədənlərinin evləri olacaq. Hər kəs dünyadakı qısa ömrünü qoyub sanki heç yaşamamış kimi dünya həyatını arxada qoyacaq...

Dünya həyatı çox qısadır, sanki bir göz qırpımında keçir. Bu sehrli həyata gözlərini açan insan əgər iman gətirməyibsə, onu yaradan Rəbbini dərk etmirsə, onda boşuna vaxt keçirir. Böyük işlərə girir, ən yaxşı universiteti bitirir, şöhrətə qovuşur, bağlar, evlər tikir. Onların içini gözəl mebellərlə bəzəyir. Qızılı, gümüşü, pulu kassalarda yığıb saxlayır. Özü kimi dostlar qazanır, övladlar yetişdirir. Gözünün gördüyü, əlinin çatdığı heç nəyi özündən əsirgəmir. Bir tərəfdən mal-mülk toplayarkən, digər tərəfdən də əylənir. Gecə-gündüz bu yolun bir sonu olduğunu heç düşünmədən...

Bu yol, əslində, heç da asan yol deyil. Nəfsinə tabe olmuş milyonlarla gənc bu əziyyətli yolda yavaş-yavaş gəncliyini, gözəlliyini itirir. Bədəni illər keçdikcə çökür, gözəlliyindən əsər-əlamət qalmır. Çox böyük mübarizə ilə karyera qurur, pul qazanır. Mal-mülk yığır, ancaq yaşlandıqca yaşlanır. Bir müddət sonra elə bir an gəlir ki, o gözəl, ehtişamlı əlbisələri geyinsə də, heç bir fərq olmur. Yaşlı bədəni artıq dərmanlarla ayaqda qalır. Nə gözəlliyindən əsər qalıb, nə cazibədarlığından, nə də sağlamlığından. Şöhrəti əsən külək kimi uçub gedib. Yeni nəsillər onun nə adını bilir, nə də əsərlərini. Artıq o dalanın sonuna çatmışdır. Gördüyü bu qədər işlərə, çəkdiyi zəhmətə baxır ki, hamısı boşuna imiş, yaşadığı həyat sanki yuxu imiş, səhər cücərən həyat axşam



solub qurumuş, çör-çöp olmuşdur.

Allah ayələrində dünya həyatını bir çox misalla tərif etmiş, müvəqqəti, cəlbedici olduğunu xatırlatmışdır. Əsl yurdun isə axirət olduğunu bizə xəbər vermişdir:

**Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar, dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə Allah dərgahındadır. (Ali-İmran surəsi, 14)**

**Dünya həyatı oyun və əyləncədən başqa bir şey deyildir. Müttəqilər üçün isə axirət yurdu daha xeyirlidir. Məgər anlamırsınız? (Ənam surəsi, 32)**

**Dünya həyatının məsəli göydən endirdiyimiz suyun məsəlinə bənzəyir ki, onun sayəsində insanların və heyvanların yediyi yer bitkiləri bir-birinə qatışır. Nəhayət, yer öz bərbəzəyinə bürünüb rövnəqləndiyi və onun sakinləri ona qadir olduqlarını güman etdikləri zaman gecə, yaxud gündüz əmrimiz yerə yetişər. Biz onu elə bir biçilmiş sahəyə döndərərik ki, sanki dünən heç bol (məhsulu) olmamışdı. Biz ayələri düşünən adamlar üçün beləcə izah edirik. (Yunis surəsi, 24)**

İnkarçılar dünya həyatına bu qədər aludə olub şeytana uyduqlarına görə yolun sonunu əsla görə bilməzlər. Çünki

**Onlar, axirətdə özləri üçün oddan başqa heç bir şeyi olmayan kimsələrdir. Onların dünyada gördükləri işlər boşa çıxar və tutduqları əməllər puç olar. (Hud surəsi, 16)**

Allah Quranda onların görməyən gözləri, eşitməyən qulaqları və qatı qəlbləri olduğunu deyir. Bu səbəbdən, milyonlarla insanın dünyaya aludə olub vaxt keçirməsi, yolun sonunda gözləyən məzarları görməyib dünyaya başının qarışması möminləri təəccübləndirməz. Onlar məzarla birlikdə həyatlarının bitəcəyini düşünərək ciddi şəkildə yanılırlar. Çünki məzar bir son deyil, başlanğıcdır. Sonsuz həyata açılan qapıdır. Peyğəmbərimiz (səv) bir hədisində: "İnsanlar yuxudadır, öldükdə oyanırlar", -buyurur. Hər insan məzardan sonra əbədi həyatına addım atacaq, dünya həyatında etdiklərinin əvəzini heç bir haqsızlıq edilmədən mütləq alacaq.

Yolun sonunda inkar edənlərin ruhunu tərif edilməz peşmançılıq hissi bürüyəcək. Bu elə böyük peşmançılıqdır ki, insanın milyonlarla hüceyrəsinin içinə qədər işləyir. Çünki oraya çatdıqda insan baxar ki, nə qədər çox çalışıb zəhmət çəkmişdir. Dünyada mal-mülk toplamaq, karyera qurmaq üçün Allah`ı unudub şeytanı özünə dost tutmuş, insanlara uymuşdur. Ancaq dünyada topladığı hər şey tamamilə yox olub getmişdir. Qızıl güzgülər, ipək xalçalar, qızıl bilərziklər, zinət əşyaları, gözəl ətirlər, möhtəşəm evlər, saraylar, vəzifə icra etdiyi binalar, dost-tanışlar, övladlar... Qısası, hər şey geridə qalıb, insanın əlində ancaq təqvası və Allah üçün etdiyi əməllər qalıb. Allah bu əhval-ruhiyyəni Quran ayələrində belə təsvir edir:

**Onlar, axirətdə özləri üçün oddan başqa heç bir şeyi olmayan kimsələrdir. Onların dünyada gördükləri işlər boşa çıxar və tutduqları əməllər puç olar. (Hud surəsi, 16)**

**Onların əməlləri həm bu dünyada, həm də axirətdə heç olacaq, onların yardımçıları da olmayacaqdır. (Ali-İmran surəsi, 22)**

Biz bu dünyaya ən yaxşı məktəbləri oxuyub ən yaxşı vəzifələri tutub, ticarətlə məşğul olub, pul toplayıb evlərimizdə rahat oturmaq üçün gəlməmişik. Yaradılış məqsədimiz bu deyil. Bu dünyaya gözlərimizi açmağımızın səbəbi bu deyil. Bu dünyaya Allah`a qul olmağa gəlmişik, iman gətirməyə və qəlbimizi Allah sevgisi ilə doldurmağa gəlmişik. Səhər-axşam Rəbbimizin şəninə təriflər deməyə, Onun ismini zikir etməyə gəlmişik. Yanlış yolda sürətlə irəliləyən şüursuz insanlara, imansızlara tabe olmaq üçün gəlməmişik. Məhdud günlərimizi, gecələrimizi saleh əməllərlə doldurmağa gəlmişik. Mal-mülkümüzü, gəncliyimizi, gözəlliyimizi Allah yolunda sərf etməyə gəlmişik.



İmanlı nəsillər yetişdirməyə, qəlbi Allah sevgisi ilə dolu dostlar qazanmağa gəlmişik. Allah üçün yaşamağa və son nəfəsimizi də Allah sevgisi ilə verməyə gəlmişik:

**De: "Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür! (Ənam surəsi, 162)**

Unutmayın ki, milyonlarla kor, kar və yolun sonunu görməyən insanın arasında çox şüurlu yaşayan, yolun sonunda onu gözləyən məzardan və əbədi həyatdan xəbərdar olan insanlar da var. Onların sayının çox az olması və nəzərə çarpmaması sizi əsla yanıltmasın. Onlar imanla və ağılla hərəkət edir, dünya həyatını tərk edib axirət üçün yaşayırlar. Harada olsanız, siz də bu xeyirli, imanlı, şərəfli, təqvalı insanlara qoşulun. Onlarla eyni qapılardan girib Ədn cənnətlərində qarşılanın. Allah`ın gözəl salamı ilə və rəhməti ilə sonsuz axirət həyatını qazanmağın şərəfini və xoşbəxtliyini yaşayın.

**Ey iman gətirənlər! Sizi ağrılı-acılı əzabdan xilas edəcək bir ticarəti sizə bildirimmi? Allah`a və Onun Elçisinə iman gətirin, Allah yolunda malınız və canınızla cihad edin. Bilsəniz, bu, sizin üçün nə qədər xeyirlidir. (Saff surəsi, 10-11)**



Qara dəliklərə Quran ayələrində necə işarə edilir?

Qara dəliklərdən keçmişə aid məlumat əldə etməyin mümkün olduğu elmi cəhətdən necə açıqlanır?

# Qara dəliklər: uca Allah`ın Hafiz isminin təcəllisi

XX əsrdə göy cisimləri ilə bağlı çoxlu kəşflər edilmişdir. Dövrümüzdə hələ yeni tanınan bu cisimlərdən biri də qara dəliklərdir. Qara dəliklər yanacağı tükənən ulduzun içinə doğru büzüşməsi və nəhayət ulduz əvəzinə sonsuz sıxlıqda və sıfır həcmdə böyük cazibə sahəsinin əmələ gəlməsi ilə formalaşır. Səthində cazibə qüvvəsi çox güclü olduğuna və içinə işıq düşmədiyinə görə qara dəliyi ən böyük teleskoplarla da görmək mümkün deyil. Ancaq içinə çökən ulduzu yerləşdiyi yerin ətrafına təsiri ilə müəyyən etmək mümkündür. Allah "Vaqiə" surəsində ulduzların yerlərinə and içərək buna belə diqqət çəkir:

**Ulduzların mənzillərinə and olsun! Kaş bunun nə qədər böyük bir and olduğunu biləydiniz. (Vaqiə surəsi, 75-76)**

Qara dəlik bir kütlənin işığın sıza bilməyəcəyi qədər kiçik sahədə toplanmasıdır. Güclü cazibə sahəsi fotonları və ən sürətli zərrəcikləri belə bu bölgədə tutur. Günəşdən 3 dəfə böyük kütləsi olan tipik bir ulduzun yanması və partlaması nəticəsində əmələ gələn qara dəliyin diametri 20 km-dir. Qara dəliklər qaradır, yəni onları birbaşa müşahidə etmək mümkün deyil. Ona görə, onları digər göy cisimlərinə təsir etdiyi güclü cazibə qüvvəsi ilə müəyyən etmək mümkündür. Aşağıdakı ayədə də qiyamət günü təsvirləri ilə yanaşı, qara dəliklərlə bağlı bu elmi kəşfə işarə edilə bilər:

**Ulduzlar sönəcəyi zaman (Mürsəlat surəsi, 8)**



Ayədə ulduzlarla bağlı bu məlumata diqqət çəkilməsi Quranın Allah`ın sözü olduğunu sübut edir.

İnsanların hələ göy cisimləri haqqında məlumatı olmadığı dövrdə uca Allah Quranda digər göy cisimləri kimi qara dəliklər haqqında da məlumat verir.

## Qara dəliklərdən keçmişə aid məlumat əldə etməyin mümkün olduğu elmi cəhətdən açıqlanmışdır

Haqqında çox az məlumat olan qara dəliklərlə bağlı açıqlamaları ilə diqqət çəkən məşhur fiziklərdən ingilis Stiven Hokinq bir mətbuat konfransında qara dəliklər nəzəriyyəsi haqqında tezislərindən birinin yanlış olduğunu açıqlamışdır. Hokinq 1976-cı ildə qara dəliyin əmələ gəlməsi ilə nüvə enerjisi hasil etməyə başladığını, ancaq eyni anda böyük miqdarda enerjisini də itirdiyini demişdi. Nəzəriyyəyə görə, bu radiasiya qara dəliyin içində nə olduğu haqqında məlumat vermirdi, çünki qara dəliklə birlikdə içindəki bütün məlumatlar da yox olurdu. Əslində, bu iddia kvant fizikasının əsas qanunlarına zidd idi. Çünki kvant fizikası kainatda olanları ən kiçik ölçüdə tədqiq edir. Bu da kainatda heç bir məlumatın itməməsinə əsaslanır. Stiven Hokinq illərlə qara dəliklərin güclü cazibə qüvvəsinin kvant qanunlarına üstün gəldiyini bildirirdi. İndi isə bu fikrindən daşınmışdı. Hokinqin yeni "Qara dəliklər nəzəriyyəsi" əvvəlkindən çox da fərqlənmir. Yeni nəzəriyyə də qara dəliklərin uzun müddət radiasiya yaymasını deyir. Əsas fərq isə budur ki, yeni nəzəriyyə qara dəliklərin içindəki məlumatı əldə etməyin mümkün olduğunu deyir. Stiven Hokinqin bu şəkildə məlumat əldə etməsi çox maraqlıdır. Çünki bu nəzəriyyə uca Allah`ın Hafız, yəni bütün işləri təfərrüatları ilə qoruyub-saxlayan isminin təcəllisinin göstəricisidir və məşhur fizik tərəfindən elmi cəhətdən sübut edilmişdir.

Məlum olduğu kimi, Allah qatında hər şey bir anda olub bitmişdir. Kainat əmələ gəldiyindən bəri baş verən bütün hadisələr bu bir ana sığır. Bu ana aid bütün məlumatlar Allah qatında bir kitabda saxlanılır. Quranda "Lövhi-məhfuz" adlandırılan ana kitabda hər şey haqqında məlumat olduğu bildirilir.



**Kainat yaradıldığından bəri mövcud olan canlı-cansız hər şey, baş verən hər hadisə Allah tərəfindən yaradılır və Ona məlumdur, yəni bütün bunlar Allah`ın hafizəsindədir. Lövhi-məhfuz da Allah`ın Hafiz isminin təcəllisidir.**

**Şübhəsiz ki, o, yanımızdakı ana kitabdandır. O, ucadır, hikmətlə doludur. (Zuxruf surəsi, 4)**
**... Kitabın anası da Onun yanındadır. (Rəd surəsi, 39)**
**... Bizdə qoruyan bir kitab vardır. (Qaf surəsi, 4)**
**Göydə və yerdə elə bir gizli şey yoxdur ki, açıq-aydın yazıda olmasın. (Nəml surəsi, 75)**
**(Hər kəsin) kitabı (qarşısına) qoyulacaq və sən günahkarların orada olanlardan qorxduqlarını görəcəksən. Onlar deyəcəklər: "Vay halımıza! Bu necə bir kitab imiş! O, kiçik, böyük günahı buraxmadan hamısını sayıb yazmışdır!" Onlar etdikləri əməlləri öz qarşılarında görəcəklər. Rəbbin heç kəsə haqsızlıq etməz! (Kəhf surəsi, 49)**

Aləmlərin Rəbbi, kainatın yaradanı uca Allah kiçik qum dənəciyindən nəhəng dağlara, su damlasından möhtəşəm göy üzünə qədər kainatdakı hər şeyi qüsursuz nizamla və ağılla yaratmışdır. Sonsuz mərhəmət sahibi Rəbbimiz göy qurşağını da insanlara gözəllik və düşünmək üçün imkan olaraq müxtəlif xeyirlərlə yaratmışdır. Uca Allah üstün ağlının əsəri olan, bir çox nemət verən göy üzünü **"Göyləri və yeri icad edən Odur. O, bir işi yaratmaq istədikdə ona ancaq: "Ol!"– deyər, o da olar" (Bəqərə surəsi, 117)** ayəsində xəbər verdiyi kimi yoxdan yaratmışdır.

Quranın Allah`ın sözü olduğunu sübut edən möcüzələrdən biri də qara dəliklərə işarə edən ayələrdir. Quran ayələrinin mütəşabih (bir çox məna ifadə etmə) xüsusiyyəti gələcək illərdə də Quranın çoxlu möcüzəsinin aşkar ediləcəyini göstərir (doğrusunu Allah bilir). Sonsuz ağıl və elm sahibi uca Allah`ın sözü olan Quranda insanların qavramadığı və anlamaq üçün hələ kifayət qədər məlumatlarının olmadığı məlumatlar da var. Bu məlumatlar inkişaf edən texnologiya və elm sayəsində Rəbbimizin istədiyi zamanda və qədərdə gün işığına çıxır.

## Sonsuzluğa kilidlənmək nə deməkdir?

Burada qarşımıza çox mühüm həqiqət çıxır. Allah`ın hafizəsi sonsuzdur, elə isə onda mövcud olan heç nə yox olmaz. Başqa sözlə, Allah`ın yaratdığı heç bir canlı ölüb yox olmaz, heç bir çiçək solub yox olmaz, heç bir içki qurtarmaz, heç bir zaman keçməz, heç bir qida tükənməz... Allah hər an yaradır, hər şey əzəldən yaradılmış və sonsuzluğa kilidlənmişdir.

Bunu belə açıqlamaq olar: hər varlıq və hadisə yaradıldığı anda, əslində, onun üçün sonsuzluq da



başlamışdır. Məsələn, bir çiçək yaradıldığı anda bir daha yox olmamaq üzrə yaradılmışdır. Bu varlığın və ya cismin görüntüsünün insan üçün itməsi, insanın hafizəsindən silinməsi onun yox olması, ölməsi demək deyil. Allah`ın hafizəsində, Allah`ın qatında mövcuddur. Allah`ın hafizəsində bu canlının yaranması, həyatı boyu keçirdiyi anlar, ölümü mövcuddur.

Allah yaratdığı hər şeyi sonsuz yaradır. Yaradılan şeylər üçün artıq sonsuz həyat başlamışdır. Lakin bunu yaxşı anlamaq üçün tək-tək varlıqlar və hadisələr üzərində düşünməkdə fayda var. Ancaq bu nümunələrə keçməzdən əvvəl bir məsələyə də toxunmaq lazımdır: burada izah edilənlər, şübhəsiz ki, bir insanın həyatında qarşılaşdığı ən böyük elmlərdən biridir. Sonsuzluq məfhumu ilə bağlı bu həqiqətləri çoxları ilk dəfə eşidir, ilk dəfə düşünür. Əsas olan budur: Allah Quranda yalnız Allah`a səmimi qəlbdən üz tutan şəxslərin öyüd-nəsihət qabul edəcəyinə diqqət çəkir. Yəni səmimi qəlbdən Allah`dan yardım istəyən, Onun sonsuz qüdrətini təqdir etməyə çalışan, Rəbbimizi qavramaq üçün səy göstərən insanlar burada izah edilən həqiqətlərdən də öyüd alacaq və qavramağa başlayacaqlar.

## Qara dəliklərə Quranda diqqət çəkilmişdir

"Tariq" surəsinin üçüncü ayəsində dələn ulduzdan bəhs edilir.

**And olsun göyə və gecə gələnə! Sən nə bilirsən ki, gecə gələn nədir?! (Bu) dəlib keçən ulduzdur. (Tariq surəsi, 1-3)**

Ərəb dilində ayədə "dəlik" mənasını verən "sakb" kökündən törəmiş "dəlik açan, dələn, dəlib keçən" mənalarını verən "əssakibu" sözü işlədilir. Qara dəlikləri tərif edən elmi məqalələrdə isə "dəlik açmaq, dəlmək" mənalarını verən "puncture" sözü işlədilir. Qara dəliklərin xüsusiyyətini ifadə etmək üçün Quranda işlədilən bu söz çox hikmətlidir. Ayədə ulduzlarla bağlı bu məlumata da diqqət çəkilməsi Quranın Allah`ın sözü olduğunu sübut edən digər mühüm məlumatdır.



# Hər tərif Allah'adır

Hər gözəlliyin, hər nemətin əsl sahibi Allah'dır. Ona görə, gözəlliyə tərif dedikdə nemətin mənbəyinə, əsl sahibinə yönəlmək lazımdır. "Ya Rəbbim, Sən nə gözəl yaradıbsan, bütün təriflər Sənədir", -deyilməlidir.

Gözəllik insana zövq, xoşbəxtlik, rahatlıq verən nemətdir. İnsanlar həyatın hər mərhələsini bu neməti əldə etmək arzusu ilə, xoşlarına gələn gözəlliklərə uyğun olaraq tənzimləyirlər. İnsanların gözəlliyə meyli, bu nemətə bağlılığı əvəzedilməzdir. Seçim etməli olan insan həmişə ən gözəli seçir. Heç kim xoşuna gəlməyən, bəyənmədiyi çirkin şeyi seçməz və istəməz. Çünki insanın ruhu gözəl görüntülərdən, gözəl əxlaqdan, gözəl sözdən zövq alacaq şəkildə yaradılmışdır. İnsanların gözəlliyə bu qədər istəkli olmasının səbəbi ruhlarındakı gözəlliyi əldə etmə arzusunu reallaşdırmaqdır. Qırmızı gül, ağ zanbaq, parıltısı ilə göz qamaşdıran cavahirat,






gözəl at, gözəl bağ, gözəl ev, gözəl avtomobil, gözəl uşaq və ya gözəl bir üz... Bunları görən insanın içində gizli də olsa, bu gözəlliklərə sahib olmaq, heç olmasa baxaraq və ya bir dəfə də olsa, istifadə edərək bunlardan faydalanmaq arzusu olur. Quranda bu istəkdən qaynaqlanan sahiblənmə hissinin dünya həyatında bir imtahan olaraq insanlara cəlbedici göstərildiyi xəbər verilmişdir:

> **Qadınlar, uşaqlar, qızıl-gümüş yığınları, yaxşı cins atlar, mal-qara və əkin yerləri kimi nəfsin istədiyi və arzuladığı şeylər insanlara gözəl göstərilmişdir. Bunlar dünya həyatının keçici zövqüdür, gözəl dönüş yeri isə Allah yanındadır. (Ali-İmran surəsi, 14)**

## Allah kainatın hər guşəsini gözəlliklərlə bəzəmişdir

Sonsuz elm və qüdrət sahibi olan uca Allah insanları gözəlliyə sövq edən istəklərinə asanlıqla nail olmaları və zövq almaları üçün kainatın hər guşəsində Cəmil (gözəl), Müsəvvir (təsvir edən, forma və surət verən), Sani (sənətkar) və Bədi (yoxdan yaradan) isimləri ilə təcəlli edir. Məsələn, günəş doğduqda səmada əmələ gələn mənzərədə Allah'ın Sani isminin təcəllilərini seyr edirik. Kəpənəyin qanadlarındakı qüsursuz simmetriya Allah'ın Müsəvvir, yəni təsvir edən, forma verən isminin təcəllisidir.





Ehtişam və qüdrətindəki gözəlliklə kainatın, qalaktikaların, planetlərin, canlıların, hətta hüceyrənin belə olmadığı zamanda: "Ol!" -deməsi ilə yaranan atomlardan, molekullardan, hüceyrələrdən, canlılardan, planetlərdən, ulduzlardan, qalaktikalardan ibarət sonsuz aləmi düşündükdə Allah'ın Bədi, yəni yoxdan yaradan isminin təcəllisinə heyran oluruq.

Çox gözəl insan üzü gördükdə bədəninin, gözlərinin gözəlliyinə, üzündəki simmetriyaya qarşı içimizdə heyranlıq hissi doğur, çünki Allah'ın Cəmil (gözəl) isminin təcəllisini bəyənirik. İnsan Allah'ın Öz ruhundan üfürərək yaratdığı varlıqdır. Gözəlliyi axtaran hər insan fərqinə varmasa da, əslində, Allah'ın bənzərsiz sənətindən, qüdrətindən, elmindən, gözəlliyindən ruhuna zövq verən neməti axtarır. Gözəllikdən alınan zövq də hz. Muhəmmədin (səv) "Allah gözəldir və gözəli sevir" (Tirmizi, Ədəb 41) hədisindən anladığımız kimi, Allah'ın bu xüsusiyyətinin qulundakı təcəllisidir. Allah gözəlliyi sevir, Onun ruhunu daşıyan qulları da gözəlliyi sevirlər.

## Dünyadakı gözəlliklər tədricən məhv olur

Dünya həyatında bir insan gözəllikləri nə qədər arzulayıb əldə etməyə çalışsa da, əldə etdiyi bütün gözəlliklər dünya şərtləri altında xarab olmağa, köhnəlməyə, məhv olmağa məhkumdur. Ona görə,





bəyənərək, öyünərək əldə edilən bütün gözəlliklər tədricən məhv olacaq. Məsələn, çox gözəl insanın gözəlliyi dərisi yaralanmadıqda və ya bir xəstəlik olmadıqda ən çox 15-20 il davam edir. Çox bəyəndiyi çiçək ən gec bir həftə sonra solur və əvvəlki gözəlliyini itirir. Ən davamlı materiallardan tikilən gözəl bir ev və ya avtomobil belə zamanla köhnəlib xarab olur.

Bir neçə nümunədən də göründüyü kimi, dünyadakı bütün gözəlliklər zamanla məhv olmağa məhkumdur. Yer üzündə zamanın məhv etmədiyi heç bir gözəllik yoxdur. Allah istəsəydi, sonsuz qüdrəti və elmi ilə əbədiyyən davam edən gözəlliklərlə dünyanın hər yerini bəzəyərdi. Ancaq imtahan üçün yaratdığı qullarının Onu tanımaları, əzabını və qüvvətini anlamaları, Cənnəti istəyib Cəhənnəmdən qorxmaları üçün yer üzünü acizlik və qüsurlarla dolu yaratmışdır.

Əsl həyatın dünyada olmadığını bilməyən bir çox insan gözəlliklərin ardınca qaçarkən hərisliklə boş yerə çalışırlar. Halbuki müvəqqəti gözəllik üçün bu qədər çalışmağın heç bir əsası yoxdur. Əgər bir insan rahatlığa, xoşbəxtliyə qovuşmağı çox arzulayır və bunu dünyada əldə edə bilmirsə, düşünməli və Cənnətdəki əbədi həyata qovuşmağın yollarını axtarmalıdır. Çünki insanın gözəllik istəyinə əbədi qovuşacağı yeganə yer Cənnətdir. Bu həqiqət Quranda belə xəbər verilmişdir.

**...Orada sizin üçün nəfsinizin çəkdiyi, istədiyiniz hər şey vardır. (Füssilət surəsi, 31)**





## Nəfsin əldə etməyə çalışdığı gözəlliyin əsli dünyada yoxdur

İnsanın gözəlliyə düşkünlüyü nemətə sahib olduqdan sonra çox vaxt gözlənilən həzzi, xoşbəxtliyi vermir. Gözəlliklərin tədricən məhv olması buna səbəbdir, digər səbəb isə nəfsin bundan daha gözəlini axtarması və istəməsidir. Gözəl avtomobil alan bir insan daha gözəl avtomobillə, gözəl üzü olan bir insan daha gözəl üzlə, gözəl bağı olan bir insan daha gözəl bağla mütləq qarşılaşır və ya xəbərdar olur. Bu isə insanın - əgər iman gətirməyibsə - daha əvvəl gözəl deyə bəyənib aldığı bir şeydən əl çəkməsinə, artıq əvvəlki kimi dəyər verməyib yeni gözəlliyi arzulamasına səbəb olur.

Daha gözəlinə sahib olsa, yenə də bu proses yeni bir gözəlliyin üzə çıxması ilə daima dəyişərək davam edir. Əslində, nəfsin axtardığı şey qüsursuzluqdur. Nəfs Quranda **"... Allah (onların) hamısına ən gözəl nemət vəd etmişdir..." (Nisa surəsi, 95)** ayəsi ilə bildirilən və bütün nəfslərə vəd edilən gözəlliyin ardınca qaçır. Cənnətdə gözəlliyin insanlara vəd edildiyini bildirən bir ayə də belədir:

> **Allah mömin kişilərə və mömin qadınlara altından çaylar axan, içində əbədi qalacaqları cənnətlər və Ədn cənnətlərində gözəl məskənlər vəd etmişdir. Allah'ın razılığı isə daha böyükdür. Bu, böyük uğurdur. (Tövbə surəsi, 72)**


*Allah mömin kişilərə və mömin qadınlara altından çaylar axan, içində əbədi qalacaqları cənnətlər və Ədn cənnətlərində gözəl məskənlər vəd etmişdir. Allah'ın razılığı isə daha böyükdür. Bu, böyük uğurdur.*
*(Tövbə surəsi, 72)*



***Əgər Allah'ın nemətlərini sayacaq olsanız, sayıb qurtara bilməzsiniz. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir! (Nəhl surəsi, 18)***

Allah'ın insanları gözəllikdən zövq alacaq şəkildə yaratması çox böyük nemətdir. Allah'ın yaratdığı milyardlarla canlı arasından ancaq insan nemətləri dərk edərək yaşayır. Məsələn, heyvanlar qoxu bilirlər, ancaq dərk etmirlər. Yəni: "Bu, gözəl qoxudur", -deyə düşünmürlər. Mexaniki yaşayırlar. Bir növ robot kimidirlər. Halbuki insan hər cür qoxunun fərqinə vararaq, düşünərək, seçərək zövq alır. Məsələn, qarpızın dadı, görünüşü, qoxusu insanın ruhunda müəyyən təsir yaradır.

Allah'ın nemətlərini düşünmək həm Allah'ın yaratma sənətini qavrayıb Allah qorxusunu, Allah sevgisini artırmaq üçün səbəbdir, həm də Allah'ın Cənnətdə möminlərə göstərəcəyi mükəmməl nemətlər üzərində düşünüb Cənnətə can atmaq üçün vasilədir.

Əgər insan şüurlu şəkildə ətrafını müşahidə etsə, sahib olduğu bütün gözəlliklərin, xoşuna gələn hər şeyin Rəbbimizin ona lütf etdiyi nemət olduğunu görə bilər. Yediyi bütün qidalar, nəfəs aldığı təmiz hava, onu sevindirən bütün gözəlliklər, sağlamlığı və daha bir çox şey Allah'ın nemətidir. Allah bəxş etdiyi nemətlərin böyüklüyünü bir ayədə belə xəbər verir:

**Əgər Allah'ın nemətlərini sayacaq olsanız, sayıb qurtara bilməzsiniz. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir! (Nəhl surəsi, 18)**



Bəzən insan hər hansı məsələdə cəhd etməsə də, yaxşı nəticə hasil olacağına inanır. Halbuki bu, tamamilə yanlış fikirdir. Heç bir müsbət nəticə səy göstərmədən öz-özünə hasil olmaz. Bu, Allah'ın insanlar üçün yaratdığı imtahanın qanunudur.

İnsanın nəfsində yaxşılıq və pislik birlikdədir. Bu da Allah'ın insanlar üçün yaratdığı imtahanın başqa xüsusiyyətidir. İnsan həyatının son saniyəsinə qədər nəfsindəki pisliklərə qarşı mübarizə aparmalıdır. Nəfsini özbaşına qoyduqda nəfsindəki yaxşılıqlar əsla öz-özünə pisliklərə üstün gələ bilməz. İnsan bunun üçün daima cəhd göstərməlidir. Ağlından, iradəsindən, vicdanından daima daha yaxşı olmaq üçün istifadə etməlidir.



# İNSAN ÖZÜNÜ MƏNFİ DÜŞÜNCƏLƏRƏ TƏSLİM ETMƏMƏLİDİR

İnsanın bu mübarizəsində iradə tətbiq edərək əldə edəcəyi xüsusiyyətlərdən biri də müsbət düşünməkdir. Yaxşılıq və pisliklərdən ibarət nəfs insanları mənfi düşünməyə təşviq edir. Əlbəttə, bunu müxtəlif bəhanələrlə örtərək, düzgün, məntiqli göstərərək edir. Müsbət düşünməyin bir növ özünü aldatmaq olduğunu, mənfi düşünməyin isə insanı həmişə daha tədbirli edəcəyini, daha ağıllı addımlar atmasına səbəb olacağını, mənfi düşünən insanın təhlükələri, riskləri daha yaxşı görəcəyini təlqin edir. İnsanları mənfi düşünməyin reallıq, müsbət düşünməyin isə özünü aldatmaq olduğuna inandırır.

İnsan belə halda Quran əxlaqı ilə davranmalıdır. Allah Quranda müsəlmanlara təvəkkül etməyi, hər hadisəyə xeyir gözü ilə baxmağı, Allah'ın qədərdə hər şeyi xeyirlə yaratdığını düşünməyi, hər vəziyyətdə Allah'a ümid bəsləməyi bildirmişdir. Elə isə mömin Quranı



əsas götürdüyü üçün şeytan və nəfsi əksini desə də, müsbət düşünməlidir.

Bundan əlavə, insan lazım gələrsə, müsbət düşünməklə mənfi düşünməyin insanlara nələr qazandırdığını və nələri itirdiyini sadə, sürətli məntiqi müqayisə ilə qavraya bilər.

Mənfi düşünmək insanı, hər şeydən əvvəl, Allah'ın rizasına uyğun düşünməkdən və Allah'ın razı olduğu əxlaqla yaşamaqdan uzaqlaşdırır. Allah'ı və Allah'ın sonsuz gözəl isimlərini unutmasına səbəb olur (Allah'ı tənzih edirik). Allah'ın ağlını, şəfqətini, mərhəmətini, sevgisini, ədalətini, qullarına yaxın olduğunu, dualara cavab verdiyini, səmimi qullarını bağışlayacağını, axirətdə hər şeyin qarşılığını ən gözəl şəkildə artıqlaması ilə verəcəyini unutdurur. Dünyada baş verən hadisələrin Allah'ın iradəsindən müstəqil şəkildə baş verdiyinə (Allah'ı tənzih edirik) inandırır. Bütün bunların nəticəsində də insanın cahiliyyə insanları kimi düşünməsinə səbəb olur. Bu da insanı daimi bədbin hala salır. Hər hadisəyə bədbinliklə baxan, özünə qapanmış, bədbəxt insan modeli ortaya çıxır. Belə bir insan yanlış düşüncə tərzinə görə ətrafındakı insanlara və baş verən hadisələrə qarşı müsbət münasibət göstərə bilmir. Ətrafındakı insanlara daima ən mənfi ehtimallarla yanaşdığına görə məsafəli və küskün davranır. Neqativ düşüncələrlə ətrafındakı insanların sevgisini, hörmətini, etibarını itirir. Heç kimi əsl mənada sevə bilmir, heç kimə şübhə etmədən güvənə bilmir. Həyatı daima narahat, bədbəxt, kədərli və bədbin keçir. Nəticədə də mənəvi cəhətdən olduğu kimi fiziki cəhətdən də gücdən düşür.

Müsbət düşünən insan isə bu xüsusiyyəti ilə hər şeydən əvvəl Allah'ın razı qaldığı əxlaqla davranır. Çünki Allah'ın bəyəndiyi əxlaq, səmimi iman, Allah'a olan etibar və itaət müsbət düşünməyi tələb edir. Bu əxlaqla yaşayan insanın vicdanı rahat olur, çünki Qurana uyğun davranır. Başına gələn hadisələrə, ətrafındakı insanlara Allah'ın istədiyi və bəyəndiyi kimi münasibət göstərir. Hər hadisəyə xeyir gözü ilə baxır, hər şeyin gözəl tərəflərini görür. Başına gələn hadisələrdəki mənfi cəhətləri tapıb bunlara kədərlənib bədbinləşmək əvəzinə 1%-lik gözəllik varsa, bu nemət üçün Allah'a şükür edir, bunun sevinci ilə yaşayır. Allah'ın hər insan kimi onun üçün də saysız-hesabsız nemət yaratdığını dərk edir. Mənfi kimi görünən bütün hadisələrin Allah'ın imtahanı olduğunu və Allah'ın rizasına uyğun davrandıqda onu dünya və axirətdə nemətə qovuşduracaq vəsilələr olduğunu bilir. Ən çətin, ən mürəkkəb hadisələrdə belə mənfi düşünməz;

çünki Allah'ın səmimi qullarına mütləq yardım edəcəyini unutmur. Gücü çatmadığı şeydə təşvişə düşməz, çünki Allah'ın sonsuz qüvvət sahibi olduğunu dərk edir. Hadisələrin öz-özünə baş vermədiyini, Allah'ın hər şeyi xeyir və hikmətlərlə yaratdığını bildiyinə görə başına gələn hər hadisədə gözəllik görür. Bütün bunları bilməsi ona dünyada daimi rahatlıq və xoşbəxtlik qazandırır. Nə baş versə də, Allah'a ümid bəsləməyin, Allah'a çox güvənməyin, Allah'ın yardımına bel bağlamağın rahatlığı ilə yaşayır. Hər məsələdə pozitiv davranır. Hadisələrdə, insanlarda qüsurların, mənfiliklərin olduğunu, əlbəttə, görür. Ancaq bilir ki, bunun həlli hər şeyə bədbin gözlə baxıb kədərlənmək deyil. Bu qüsurları aradan qaldırmaq üçün atacağı hər addımı Allah'a güvənərək, müsbət düşünərək, ümidvar olaraq, nemətləri görərək atır. Ona görə, ən çox sevilən, ağlına ən çox etibar edilən, sözlərinə etimad göstərilən, fikirlərinə güvənilən, dostluq qurulan insanlar müsbət düşünən insanlardır.



Habelə, müsbət düşünmək özünü aldatmaq və ya reallıqdan uzaq düşünmək deyil. Əksinə, bir çox insanın görə bilmədiyi əsl həqiqəti görmək, Allah'ın sonsuz gücünü layiqincə təqdir etmək, Allah'ın hər şeyə qadir olduğunu bilmək deməkdir. Əsl reallıq budur. Əsl doğruluq, dürüstlük budur. Əksi isə insanın özünü aldatmasıdır. Çünki əksini düşünən insan hər şeyi özünün və ya digər insanların etdiyini zənn edir. Özünün və insanların gücünün nə qədər məhdud olduğunu, varlıqların nə qədər aciz olduğunu gördükcə də mənfi düşüncələrə qapılır. Halbuki öz gücü onsuz da heç nəyə çatmaz. Allah'ın gücünə inancı və Allah'ın gücünü layiqincə qavraması insana müsbət düşünmə, ümidvar olma, hər hadisənin nəticəsindən xeyir gözləmə gücünü verir.

Bütün bu həqiqətləri diqqətlə nəzərdən keçirən bir insan Allah'ın rizasının müsbət düşünməkdə olduğunu görməlidir. Bununla yanaşı, mənfi düşünməyin insana heç bir faydası olmadığını, əksinə, həyatını qaraltdığını, çətinləşdirdiyini və mənəvi cəhətdən keyfiyyətini aşağı saldığını anlamalıdır. İnsanı bir kədərdən başqasına sürükləyən, hər yerdə, hər hadisədə insana bədbəxtlik qapısı açan, nə özünə, nə də başqalarına faydası olan şeytani düşüncə tərzi olduğunu bilməlidir. Quran əxlaqı insanın Allah'ın insanlar üzərindəki böyük lütfünü görməsinə, ətrafındakı nemətlərin sevinci ilə yaşamasına, bunlar üçün Allah'a səmimi qəlbdən şükür etməsinə və ən çətin şərtlərdə belə Allah'dan xeyir ümid etməsinə vəsilə olur. Əsl reallıq məhz budur.

Mənfi düşünməyi tədbirli olmaq zənn edən insan yenə yanılır. Bədbin, özünə qapanmış, qəmgin, ümidsiz insanın həqiqi mənada tədbir alması mümkün deyil. Doğru düşünmə, hadisələri olduğu kimi görüb müsbət dəyərləndirmə və tədbir alma qabiliyyətini bədbin əhval-ruhiyyədə olmaqla itirir. İnsan ancaq müsbət düşünərək rahat, ağıllı, pozitiv əhval-ruhiyyədə ikən tədbir ala bilər. İnsanları, hadisələri və təhlükələri düzgün təhlil



etməsi ancaq müsbət düşündükdə mümkündür.

Allah'ın Quranda insanlara bildirdiyi bir sirr var. İnsan mənfi şeylər əvəzinə ətrafındakı gözəllikləri, nemətləri, müsbət hadisələri gördükdə və bu cür düşündükdə Allah ona olan nemətini daha da artırır. Əks təqdirdə, yəni insan daima yaşadığı şəraitdən, başına gələn hadisələrdən, ətrafındakı insanlardan şikayətləndikdə, ancaq çatışmazlıqları, qüsurları gördükdə, gözəllikləri isə layiqincə dəyərləndirmədikdə bu insan öz əli ilə özünə bədbəxt həyat formalaşdırır.

Hər insan Allah'ın bildirdiyi bu sirr üzərində yaxşı düşünməlidir. Ən çətin şərtlərdə yaşayan insanın belə həyatında sevinəcəyi, xoşbəxt olacağı, şükür edəcəyi çoxlu nemət var. Əgər azacıq nemətə şükür etməyi, azacıq çətinlikdə belə ümid bəsləməyi bacarırsa, Allah ona qatından dünya və axirətdə daha artığını bəxş edər. Allah Quranda insanlar üzərindəki nemətinin bənzərsizliyini və nemətə şükür etməyin sirrini belə bildirmişdir:

**O zaman Rəbbiniz bildirmişdi: "Əgər şükür etsəniz, sizə artıraram, yox əgər nankorluq etsəniz, (bilin ki,) Mənim əzabım şiddətlidir". (İbrahim surəsi, 7)**

**O, sizə istədiyiniz hər şeydən vermişdir. Əgər Allah'ın nemətlərini sayacaq olsanız, onları sayıb qurtara bilməzsiniz. Həqiqətən, insan çox zalım, çox nankordur. (İbrahim surəsi, 34)**

**Əgər Allah`ın nemətlərini saymalı olsanız, onları sayıb qurtara bilməzsiniz. Həqiqətən, Allah bağışlayandır, rəhmlidir. (Nəhl surəsi, 18)**

İnsan həyatı boyu ən sıxıntılı anlarında belə bu həqiqətləri əsla unutmamalıdır. Həyatının sonuna qədər müsbət düşünmək üçün qəti qərar verməli və nə baş versə də, bu qərarından əsla dönməməlidir.

Ancaq bunu da unutmaq olmaz ki, insan gözəl əxlaqı, müsbət düşünməyi, Allah'a ümid bəsləməyi nemətə qovuşmaq üçün deyil, Allah'ın rizasını qazanmaq üçün yaşamalıdır. Allah qatında qəbul olunan əməl budur. Çünki Allah'ın rizası dünyadakı və axirətdəki bütün nemətlərdən üstündür. Allah razı olarsa, lütf edəcəkdir. Lakin bu lütf ancaq Allah'ın izni ilə, Allah'ın rizasının bütün nemətlərdən üstün olduğunu qavrayan insanlara nəsib olacaq.

# Göyün tavan olması

**O, sizin üçün yer üzünü döşəmə, göyü isə tavan etdi. Göydən su endirib onunla sizin üçün məhsullardan ruzi yetişdirdi. Siz də bildiyiniz halda, Allah'a tay tutmayın. (Bəqərə surəsi, 22)**

Yuxarıdakı ayədə göy tərif edilərkən ərəb dilində "əssəmaə binaən" sözü işlədilir. Bu söz qübbə, tavan mənaları ilə yanaşı, ərəb bədəvilərinin qurduğu çadıra bənzər örtüyü də ifadə edir. Bu ifadə ilə xarici amillərə qarşı bir növ qoruma nəzərdə tutulur.



Biz çox vaxt fərqində olmasaq da, digər planetlərdə olduğu kimi, Yer kürəsinə də çoxlu sayda meteorit düşür. Digər planetlərə düşdükdə nəhəng kraterlər əmələ gətirən bu meteoritlərin Yerə zərər verməməyinin səbəbi Yer kürəsini əhatə edən atmosferin meteoritlərə qarşı müqavimət göstərməsidir. Meteorit bu müqavimətə tab gətirmir və sürtünmə nəticəsində yanaraq kütləsinin böyük hissəsini itirir. Beləcə, böyük fəlakətlərə səbəb olan bu təhlükənin atmosfer sayəsində qarşısı alınır. Allah yuxarıda bəhs etdiyimiz atmosferin qoruyucu xüsusiyyəti ilə bağlı ayələrlə yanaşı, aşağıdakı ayədə də bu xüsusi yaradılışa diqqət çəkir:

**Məgər Allah'ın quruda olanları və Öz əmri ilə dənizdə üzən gəmiləri sizə ram etdiyini görmürsənmi? Göyü də Öz izni olmadan yerə düşməsin deyə, O tutub**



**saxlayar. Həqiqətən, Allah insanlara şəfqətlidir, mərhəmətlidir. (Həcc surəsi, 65)**

Atmosfer Yeri kosmosdan gələn mənfi təsirlərdən qoruyur. Yuxarıdakı ayələrdə göy haqqında işlədilən ifadələr göyün Peyğəmbərimizin (səv) dövründə bilinməyən bu cəhətinə diqqət çəkir. Bu məlumatlar qabaqcıl texnologiyanın, nəhəng kosmik gəmilərin, teleskopların olmadığı dövrdə, 1400 il əvvəl Qurani-kərimdə xəbər verilmişdir. Bu isə Quranın sonsuz elm sahibi Rəbbimizin vəhyi olduğunu göstərir.

## Geri qaytaran göy

Qurani-kərimdə "Tariq" surəsinin 11-ci ayəsində göy üzünün geri qaytaran xüsusiyyətindən bəhs edilir:

**And olsun geri qaytaran göyə (Tariq surəsi, 11)**

Quran tərcümələrində "qaytaran" şəklində tərcümə edilən "rəc'i" sözü "geri qaytaran" mənasını verir.

Məlum olduğu kimi, Yeri əhatə edən atmosfer bir neçə təbəqədən ibarətdir. Hər təbəqənin canlılar üçün mühüm funksiyası var. Tədqiqatlar nəticəsində hər təbəqənin maddələri və ya şüaları kosmosa və ya yer üzünə geri qaytardığı məlum olmuşdur. Burada atmosfer təbəqələrinin geri qaytarma xüsusiyyətini bir neçə nümunə ilə təhlil edək.

Məsələn, 13-15 km hündürlükdəki troposfer təbəqəsi yer üzündən qalxan su buxarının sıxlaşıb yağış kimi yerə geri qayıtmasına səbəb olur. 25 km yüksəklikdəki stratosferin aşağı təbəqəsi olan ozonosfer kosmosdan gələn radiasiyanı və zərərli ultrabənövşəyi şüaları yer üzünə çatmadan kosmosa geri qaytarır. İonosfer təbəqəsi də yer üzündən yayımlanan radiodalğalarını peyk kimi yer üzünün müxtəlif bölgələrinə geri qaytararaq mobil rabitəni, radio və televiziya yayımlarını mümkün edir. Maqnitosfer təbəqəsi Günəşdən və digər ulduzlardan yayılan zərərli radioaktiv zərrəcikləri yer üzünə çatmadan kosmosa qaytarır.

Atmosfer təbəqələrinin hələ yaxın keçmişdə kəşf edilən bu xüsusiyyətinin əsrlər əvvəl Quranda bildirilməsi Quranın Allah'ın sözü olduğunu bir daha təsdiqləyir.



# İsraf etməmək nə üçün vacibdir?

Uca Allah böyük-kiçik hər cür israfı haram etmişdir. Ona görə, düşünmədən qida və əşyaların tullanması Allah`ın rizasına uyğun deyil. Allah eyni torpaqdan minlərlə müxtəlif məhsul bitirir. Torpağı yemək mümkün deyil, qoxusu, rəngi eynidir. Ancaq Allah torpağı göydən endirdiyi su ilə sulayır və içindən dadı, rəngi, qoxusu ayrı-ayrı bitkilər bitirir. Qırmızı, sarı, yaşıl almaların belə dadı bir-birindən fərqlənir.

Quranda **"Biz bundan əvvəl Ona ibadət edirdik. Şübhəsiz ki, O, kərəm sahibidir, rəhm edəndir!" (Tur surəsi, 28)** ayəsi ilə bildirildiyi kimi, Allah insana bütün həyatı boyu yaxşılıq edir, bənzərsiz nemətlər bəxş edir. Hər şey Onun dərgahındandır. Bütün gözəlliklər, incəliklər, nemətlər Rəbbimizin sonsuz ağlının təcəllilərindəndir.

**O, sizə istədiyiniz hər şeydən vermişdir. Əgər Allah`ın nemətlərini sayacaq olsanız, onları sayıb qurtara bilməzsiniz. Həqiqətən, insan çox zalım, çox nankordur. (İbrahim surəsi, 34)**

Həqiqətən də, ayədə bildirildiyi kimi, yaşadığımız hər an uca Allah`ın saysız-hesabsız neməti ilə qarşılaşırıq. Bu nemətlərin əvəzində Allah bizdən Özünə şükür etməyimizi istəyir.

Allah sonsuz rəhmət sahibidir və insanları unudub-yanıldıqlarına görə təqsirləndirmir. Zəif olana məsuliyyət yükləmir. İnsanlara səbir və təvəkkülü öyrədərək ağır yüklərdən azad edir. Bütün bunlar Rəbbimizin isimlərinin təcəllilərindəndir. Allah`ın "mülayim" mənasını verən Həlim ismi ayədə belə bildirilir:

**Həqiqətən, Allah göyləri və yeri tərpənməsinlər deyə, tutub saxlayır. Əgər tərpənsələr, Ondan başqa onları heç kəs tutub saxlaya bilməz. Həqiqətən də, O, Həlimdir, bağışlayandır. (Fatir surəsi, 41)**

Dünyada çox nemət var, bununla yanaşı, hər nemətin yaradılış məqsədi var. Nemətlər insanların nəfslərinin istədiyi kimi şüursuz və məsuliyyətsiz şəkildə sərf etməsi üçün yaradılmamışdır. Allah verdiyi nemətlərlə qullarına sevgisini, mərhəmətini göstərir. Nemətin verilməsindəki hikmətlərdən biri həmin nemətdən istifadə edən insanın Allah`a üz tutmasıdır. İnsanlar unutmamalıdır ki, mərhəmətlilərin mərhəmətlisi olan Rəbbimizin verdiyi hər şeyə görə sorğu-sual olunacaqlar. Bunu Allah ayədə bizə belə bildirmişdir:

**Sonra da həmin gün nemətlər barəsində mütləq sorğu-sual olunacaqsınız! (Təkasur surəsi, 8)**

Allah yaratdığı nemətlərdən qullarının faydalanmasını istəyir, ancaq israf etməyi qadağan edir. Allah Quranda israf etməməyin hökmünü belə bildirir:



**Talvar üzərində olan və talvarsız bağları, dadları müxtəlif olan xurma və dənli bitkiləri, bir-birinə bənzəyən və bənzəməyən zeytunu və narı yaradan Odur. Bar verdiyi zaman onların meyvəsindən yeyin, yığım günü zəkatını verin, lakin israf etməyin. Şübhəsiz ki, (Allah) israf edənləri sevmir. (Ənam surəsi, 141)**

**Qohum-əqrəbaya da, miskinə də, müsafirə də haqqını ver. Eyni zamanda, sağa-sola da səpələmə! Həqiqətən, israfçılar şeytanların qardaşlarıdır. Şeytan isə Rəbbinə qarşı nankordur. (İsra surəsi, 26-27)**

Allah bitkiyə səbəb kimi toxumu yaratmışdır və toxumun tərkibini suyu təşkil edən oksigen və hidrogen qazlarına uyğun yaratmışdır. Yer kürəsindən kilometrlərlə uzaqlıqdakı günəşin şüalarını bitkilər üçün faydalı etmişdir. İnsanlar isə bircə toxumu belə yoxdan yarada bilməzlər. Allah bu nemətləri yox etsə, bizə bunları yenidən verəcək heç bir qüvvə yoxdur. Allah bir ayədə bu həqiqəti belə bildirir:

**De: "Deyin görüm, əgər suyunuz (yerin dibinə) çöksə, kim sizə axar su gətirə bilər?" (Mülk surəsi, 30)**

Allah yer üzündə bütün insanların ehtiyacını təmin edəcək qədər nemət yaratmışdır. Dünyadakı aclıq və yoxsulluğun ən əsas səbəblərindən biri israfdır. Bütün nemətləri xarab olmadan istifadə etməyin yollarını axtarmaq lazımdır. Hələ də dünyada 800 milyondan çox insan aclıqdan əziyyət çəkir. Buna baxmayaraq, bir çox qərb ölkəsində tonlarla qida israf edilir.

Unutmayaq ki, insanı israfa təşviq edən şeytandır. Şeytan Allah`ın israfı xoşlamadığını bildiyinə görə, insana neməti tullamağın normal davranış olduğunu təlqin edir. Möminlər bu məsələyə diqqət etməli və bir-birini Allah`ın rizasına uyğun davranışa dəvət etməlidirlər.





# Kirpi balığı şişərkən nəfəsini tutmur

**Kirpi balığı yaxınlıqda təhlükə hiss etdikdə tikanlı dərisi dəqiqələr ərzində kürə formasını alır. Kirpi balığının şişməsi onu yem olmaq riskindən xilas edir. Kürə formasını aldıqda balıq dərin nəfəs alıb nəfəsini tutmuş kimi görünür. Ancaq şişkin vəziyyətdə də nəfəs almağa davam edir.**



Kirpi balıqları şişmək üçün elastik mədələrini sürətlə su ilə doldururlar. "İtkin balıq Nemo" filmində kirpi balığı bloat da su topu kimi şişərək komik şəkildə suda üzməyə başlayırdı. Ancaq kirpi balıqlarının hava ilə şişmədiyi üzə çıxdı.

Tədqiqatçı Corcia Makgi (Georgia McGee) bu barədə belə deyir:

*"Əvvəlki tədqiqatlarda kirpi balıqlarının nəfəslərini tutaraq şişdiyi iddia edilirdi. Biz su udaraq mədəsini şişirmə ehtimalı üzərində dayandıq. Nəfəsini tutsaydı, balıq həyati orqanlarında oksigen çatışmazlığı yaranmaması üçün qısa müddətli şişkin qala bilərdi".*

Tədqiqatçılar 8 ədəd canthigastervalentini cinsindən olan kirpi balığını hovuza atıblar. Burada kirpi balığının şişməsini sürəti yavaşladılmış kamera ilə dörd dəfə zəiflədilmiş sürətlə çəkiblər. Kirpi balığının nəfəsini tutub-tutmadığını anlamaq üçün oksigen sərfini də hesablayıblar. Bunun üçün hovuz suyundakı oksigen miqdarını ölçüblər. Nəticədə, kirpi balığının şişərkən, eyni zamanda, nəfəs alıb-verdiyini sübut ediblər.

C. Makgi: *"Bu növlər şişmiş vəziyyətdə ikən də oksigen qəbul edirlər"*, -deyir. Yəni kirpi balığı futbol topu qədər şişdikdə belə qəlsəmələri ilə nəfəs alır.

Tədqiqatı aparan digər elm adamı Endryu Qreysi (Andrew Gracey) belə deyir:

*"Bu, gözəl tədqiqat oldu. Bundan əvvəl hər kəs kirpi balığının nəfəsini tutaraq şişdiyini güman edirdi".*

## Şişməni təmin edən güclü əzələlər

Burada bir balığın mədəsini su ilə dolduraraq futbol topu böyüklüyündə şişməsinin üzərində düşünmək lazımdır. Bu qədər çoxlu suyu içinə çəkib saxlamaq çox çətindir.

Bu səbəbdən, şişmək kirpi balığı üçün çox yorucudur. Şişdikdə kirpi balığının oksigen ehtiyacı beş dəfə artır. Bu da balığın şişdikdə həddindən artıq qüvvə sərf etdiyini göstərir, eynilə qaçan adamın tez-tez nəfəs alması kimi.

**C. Makgi bu barədə belə deyir:**

**“Eynilə yarışdakı insan kimi: yarış bitdikdən sonra yenidən həmin hərəkətləri etmək üçün bir az zamana ehtiyacı olur”.**

Kirpi balığının əvvəlki vəziyyətinə qayıtması və oksigen ehtiyacının normallaşması təqribən 5.6 saat çəkir. Yorğun balıq müdafiəsiz olur. Kirpi balığı da şişkinliyi keçdikdən sonra asan ova çevrilir.

Bu qədər çətin hərəkəti etmək üçün kirpi balığı ehtiyacı olan bütün xüsusiyyətlərlə birlikdə yaradılmışdır. O qədər suyu içinə çəkmək üçün yaxşı ağız əzələləri olmalıdır. Bundan əlavə, mədəsinə gedən yemək borusu əzələləri də suyu saxlamaq üçün güclü olmalıdır. Kirpi balığının əzələləri də yaradıldığı andan etibarən belədir.

Kirpi balığının yem olmaqdan xilas olmaq üçün özünü şişirdərək üstü tikanlarla dolu topa çevrilməsi möhtəşəm yaradılmış metoddur.

Habelə, mədə və dərisinin elastik olması da kirpi balığı üçün həyati əhəmiyyət daşıyır. Kirpi balığının dərisinin tikanlarla örtülü olması və şişdikdə tikanların qabarması balıq üçün mühüm müdafiə mexanizmidir.

Balıqlar yem olmaqdan xilas olmaq üçün müxtəlif metodlardan istifadə edirlər. Bəzisi sürətlə üzərək qaçır, bəzisi kamuflyaj xüsusiyyətindən istifadə edir, bəzisi zəhərli olduğunu xəbər verən rənglərini göstərərək düşməni özündən uzaqlaşdırır... Kirpi balığı da yem olmaqdan xilas olmaq üçün özünü şişirdərək üstü tikanlarla dolu topa çevrilir. Bu yolla yırtıcı həm kirpi balığını dişləyə bilmir, həm də tikanlarından qorxur.

Aydındır ki, kirpi balığı bu metodu öz ağlı ilə tapmayıb. Balıq sınama-yanılma metodu ilə də bu xüsusiyyəti kəşf edə bilməz, çünki ilk uğursuz sınaqda dərhal yırtıcıya yem olar.

Balığa bu metodu öyrədən və bunun üçün bütün bioloji xüsusiyyətləri ona bəxş edən Allah`dır.

Allah sonsuz ağıl sahibi olduğunu, hər şey kimi qədəri də üstün ağlı ilə yaratdığını bizə canlı nümunələri ilə göstərir. Quranda belə buyurulur:

**Allah Öz ayələrini sizə belə bəyan edir ki, bəlkə başa düşəsiniz.(Bəqərə surəsi, 242)**

Mənbə: Laura Geggel, Staff Writer, “Puffed-Up Blowfish Aren’t Holding Their Breath”, Live Science, 04 dekabr 2014.



Dünyada yaşayan 85 nəfər 3.5 milyard insandan, yəni dünyanın yarısından daha zəngindir

# Qlobal yoxsulluq lobbisi

Dünyada demək olar ki, hər ölkədə insanların əksəriyyəti yoxsulluqdan şikayət edir. Dünyanın təbii ehtiyatlarının tükəndiyinə, əhalinin çoxaldığına, imkanların məhdudlaşdığına inanırlar. Bu insanlar əllərindəki məhdud imkanlarla yaşadıqca, demək olar ki, hər gün daha da yoxsullaşırlar. Artıq əksəriyyət dünyada insanların aclıqdan ölməsinə heç təəccüblənmir də.

Lakin bilmədikləri bir şey var. Doğrudur, dünya yaşlanıb. Ancaq dünyanın bütün təbii ehtiyatları indiki dünya əhalisinin ehtiyacını iki qat təmin etməyə və rahat yaşatmağa kifayət edər. Buna görə də insanların yoxsullaşaraq təbii ehtiyatları əldə edə bilməməsinin səbəbi resurs qıtlığı deyil, uzun zamandır fəaliyyətdə olan yoxsulluq lobbisidir.

İngiltərə Oksford universitetinin nəzdində tədqiqatlar aparan beynəlxalq qeyri-hökumət təşkilatı OXFAM-ın son hesabatına əsasən, dünyada yaşayan 85 nəfər 3.5 milyard insandan, yəni dünyanın yarısından daha zəngindir.[1] Dünyanın ən kasıb 48 ölkəsinin ÜMM-si (ümumi milli məhsul) isə dünyanın ən varlı 3 şəxsinin var-dövlətindən azdır. Başqa sözlə, 3 nəfərin bütün sərvəti ilə 48 ölkənin əhalisi dirçələ bilər.

Bütün dünya əhalisinin təhsil almaq üçün 6 milyard dollara, əsas qida resursunu əldə etmək üçün isə 13 milyard dollara ehtiyacı var. Bu ehtiyac hər kəsin gözü önündə ikən Avropada ətirlərə 12 milyard dollar, Avropa və ABŞ-da pişik və it yeməklərinə 17 milyard dollar, ABŞ-da isə arıqlamaq üçün 50 milyard dollardan çox pul xərclənir. Təkcə ABŞ-da hərbi vəsaitə xərclənən pul 640 milyard dollardır.

Bu statistikanı verməkdə məqsədimiz dünyanın yoxsullaşması üçün, əslində, heç bir təbii səbəbin olmadığını göstərməkdir. Əlbəttə, insanlar ətirlərə və ya it yeməklərinə pul xərcləyə bilərlər, lakin bunu edərkən



digər insanları da düşünməliyik. Onların aclıqdan və ya yoxsulluqdan ölməsi üçün heç bir səbəb yoxdur. Dünya hər kəsə kifayət edər.

Ancaq xüsusi yaradılmış yoxsulluq lobbisi buna imkan vermir. İnsanlar və ölkələr yoxsullaşdırılaraq istismar siyasəti həyata keçirilir. Sahibləri heç vaxt bilinməyən və 102 illik fəaliyyətində hökumət tərəfindən nəzarət edilə bilməyən Amerika Mərkəzi Bankı (FED) yalnızca virtual puldan istifadə edərək bütün dünya iqtisadiyyatını öz əlində saxlayır. Müharibələr bu lobbinin də, mərkəzi banklarının da əsas gəlir mənbələrindəndir. Son 10 ildə ABŞ-da qeyri-sənaye istehsalı 19% nisbətində azaldığı halda, hərbi istehsalda 123% nisbətində artımın olması diqqəti cəlb edir. Eyni dəyərləndirmədə diqqətə alınan digər məqam isə hərbi iqtisadiyyatın digər iqtisadi sahələrdən üç dəfə böyük olmasıdır.[2]

Dünyanın 99%-inə maddi mənada onun yalnız 1%-i hökm edir.[3] Dünya təbii sərvətləri təkcə 1%-lik hissənin əlində cəmlənib, buna görə də insanlar gündən-günə yoxsullaşır, BMT: "Pul mənbəyi tapa bilmirik", -deyərək məcburi köçkünlərə qida yardımını dayandırır.

Ölkələrin əhalisi yoxsullaşdırılarkən, bir də yoxsullaşdırılmalı ölkələr kateqoriyası vardır. Bu ölkələrin ən əsas xüsusiyyəti sahib olduqları təbii sərvətlərlə

Quurandakı İslam iqtisadi natarazlığı, varlı-kasıb uçurumunu, istismar mexanizmlərini və hər cür ədalətsizliyi aradan qaldıran möhtəşəm ədalətli sistemi tərif edir.

Müsəlmanlar öz mənfəətlərini, öz rahatlığını düşünən istismar sisteminin bir hissəsi olmaqdan çəkinməlidirlər.

diqqəti cəlb etmələridir. Əhalisinin 36%-i həddindən artıq aşağı səviyyədə yaşayan, uşaqları işləməyə məcbur olan Əfqanıstan, Yaxın Şərqdə ən böyük qətliamlar baş verən İraq, soyqırımla qarşılaşan Myanma və bütün Afrika sahib olduğu zəngin təbii sərvətlərə baxmayaraq, müharibə və qıtlıqdan xilas ola bilmir. Bunlardan Afrika hələ də köhnə müstəmləkəçilərin nəzarəti altında hərəkət etməyə məcburdur. Çünki uran, neft, almaz, təbii qaz kimi dəyərli yeraltı sərvətlərə sahib olmasına baxmayaraq, bunları emal edə biləcək sənayeyə və ixrac edə biləcək hər hansı nəqliyyat xəttinə sahib olmasına heç vaxt imkan verilməyib. Sənaye və ixrac gücünə sahib olan ölkələr təbii sərvətləri bu ölkələr adından deyil, öz adlarından emal edərək istifadə edirlər. Bu ölkələrdə müharibə və qıtlığın heç vaxt azalmaması heç də təəccüblü deyil.

Yoxsulluq lobbisinin dünya səviyyəsindəki fəaliyyəti artıq inkişaf etmiş ölkələri də rahat qoymur. Fransada evsizlərin sayı 50% artarkən, 3.6 milyon insanın da daimi evi yoxdur. Londonun arxa küçələrində aclıq artarkən, ABŞ-da evsiz uşaqların sayının 2.5 milyona çatdığı bildirilir.

Ən qorxunc fəlakətlərlə qarşılaşdığımız, nifrəti ən şiddətli şəkildə gördüyümüz və demək olar ki, insanın dəyərdən tamamilə düşdüyü xüsusi dövrdəyik. Dünyanın sonuna yaxınlaşdıqca yaxşılarla pislərin mübarizəsini hər zaman görəcəyik. Pis olanlar həqiqətən pis olacaq, yaxşıların isə çətin mübarizədəki səyləri çox dəyərli olacaqdır.

Qurandakı İslam iqtisadi natarazlığı, varlı-kasıb uçurumunu, istismar mexanizmlərini və hər cür ədalətsizliyi aradan qaldıran möhtəşəm ədalətli sistemi tərif edir. Müsəlmanların isə bu ədalətli sistemi tətbiq etməyə və bununla dünyanı xilas etməyə gücləri çatar. Lakin bunun üçün birlikdə hərəkət etməlidirlər. Bu birliyi təmin etmək üçün isə, həqiqətən, dünyadakı ədalətsizliyi



aradan qaldırmaq və məzlumları xilas etməyi hədəf almalıdırlar. Yalnız öz mənfəətini düşünən bir sistemin müsəlmanlara da çətinlik və zülm gətirdiyi açıq-aşkardır.

Müsəlmanlar öz mənfəətlərini, öz rahatlığını düşünən istismar sisteminin bir hissəsi olmaqdan çəkinməlidirlər. Bəşəriyyətin bu böyük problemi qarşısında xilaskar kimi davranmalıdırlar. İstismar sisteminin arxasına düşüb öz mənfəətini qorumağa çalışan, "mənə toxunmayan ilan min il yaşasın" məntiqi ilə kənara çəkilməməlidirlər. Bu bərabərsizliyə və istismar lobbisinə diqqət çəkərək və Qurandakı ədalətli sistemi tanıdaraq gücləndirməlidirlər. Hər kəsin istismar edildiyi bu dəhşətli sistemi məhv edəcək həll yolunu həyata keçirmək mümkündür. Müsəlmanlar hz. Süleymanın (əs) yoxsulluq lobbisini məhv edərək dünyaya bəxş etdiyi rifahın əsrimizdəki aparıcı qüvvəsi ola bilərlər. Lakin əvvəlcə, dünyaya yalnız rahat yaşamaq üçün deyil, imtahan edilmək üçün gəldiklərini xatırlamalıdırlar. Bütün çarəsiz insanlardan müsəlmanlar məsuldurlar (Quran, 4/75). Allah isə doğru yolda birlikdə cəhd edənlərin yolunu hər zaman açır.

1-http://www.theguardian.com/business/2014/jan/20/oxfam-85-richest-people-half-of-the-world

2-http://en.wikipedia.org/wiki/List_of_countries_by_military_expenditures

3-http://www.washingtonsblog.com/2012/02/debunking-the-myth-that-war-is-good-for-the-economy-once-and-for-all.html

# Fosillər təkamülü təkzib edir





## Omar (dəniz xərçəngi)

Dövr: Mezozoy erası, Tabaşir dövrü
Yaşı: 146-65 milyon il
Bölgə: Bear Pav, Kanada
150 ildir əldə edilən fosil qeydləri canlı növlərinin əsla dəyişmədiyini və bir-birinə çevrilmədiyini sübut etmişdir. Dövrümüzdə yaşayan nümunələrindən heç bir fərqi olmayan 146-65 milyon illik omar fosili bu həqiqəti bir daha vurğulayır.

**daha ətraflı www.fosilmuzeyi.com-da**









## Sekvoya qozası

Dövr: Kaynozoy erası, Eosen dövrü
Yaşı: 52-43.6 milyon il
Bölgə: Kaşe Krik, Britaniya Kolumbiyası, Kanada
52-43.6 milyon illik sekvoya qozaları canlıların təkamül keçirmədiyinin dəlillərindən biridir. Milyon illər əvvəlki sekvoyalarla dövrümüzdəkilər arasında heç bir fərq yoxdur və bu, canlıların təkamül keçirmədiyini göstərir.

**daha ətraflı www.fosilmuzeyi.com-da**









## Yarpaq zərərvericisi

Dövr: Kaynozoy erası, Oliqosen dövrü
Yaşı: 25 milyon il
Bölgə: Dominikan Respublikası
Şəkildəki 25 milyon yaşındakı yarpaq zərərvericisi dövrümüzdəki yarpaq zərərvericilərinin eynisidir. Milyon illər keçməsinə baxmayaraq, heç bir dəyişikliyə məruz qalmayan yarpaq zərərvericiləri təkamül nəzəriyyəsini təkzib edir.

**daha ətraflı www.fosilmuzeyi.com-da**



## Sıçrayan hörümçək

Dövr: Kaynozoy erası, Oliqosen dövrü
Yaşı: 25 milyon il
Bölgə: Santyaqo yaxınlığındakı dağlıq bölgə, Dominikan Respublikası
Bu kəhrəba parçasında *salticidae* fəsiləsinə aid sıçrayan hörümçək görünür. Boylarından 50 dəfə hündürlüyə tullanaraq ovlarını tutduqlarına görə onlara bu ad verilib. Başlarının ön tərəfində yerləşən dörd ədəd gözlə yanaşı, bu gözlərinin üstündə dörd kiçik gözləri də var. Qüsursuz quruluşa malik gözləri ilə ovlarını müəyyən edirlər. Milyon illər əvvəl yaşayan sıçrayan hörümçəklər eynilə dövrümüzdəkilər kimi tam, qüsursuz quruluşdadırlar. Bu quruluşlarında milyon illər boyu heç bir dəyişiklik olmayıb. Şəkildəki 25 milyon illik kəhrəba da bu faktı sübut edir.

**daha ətraflı www.fosilmuzeyi.com-da**

# Yarpaqlardakı mikroskopik fabrik

**Göydən suyu endirən Odur. Bu, həm sizin içməyiniz, həm də içində (mal-qaranızı) otardığınız (otların bitməsi) üçündür. (Allah) onunla sizin üçün dənli bitkilər, zeytun, xurma, üzüm və (başqa) meyvələrin hamısından yetişdirir. Həqiqətən, bunda anlayan adamlar üçün dəlillər vardır. (Nəhl surəsi, 10-11)**

XVII əsrdə yaşamış belçikalı fizik Yan Baptist van Helmont elmi təcrübələrindən birində söyüd ağacının böyüməsini müşahidə edir və müxtəlif ölçmələr aparır. Ağacı əvvəlcə çəkir, 5 il sonra yenidən çəkir və ağırlığının 75 qr artdığını görür. Bitkinin böyüdüyü qabdakı torpağı çəkdikdə isə 5 il ərzində sadəcə bir neçə qram azaldığını görür. Fizik van Helmont bu təcrübəsində söyüd ağacının böyüməsinin səbəbinin sadəcə dibçəkdəki torpaq olmadığını aşkar edir. Bitki böyümək üçün torpağın çox az hissəsindən istifadə etdiyinə görə, deməli, başqa yerdən qida alır.

XVII əsrdə van Helmontun kəşf etməyə çalışdığı bu hadisə bəzi mərhələləri dövrümüzdə belə tam məlum olmayan fotosintez prosesidir. Yəni bitkilər qidalarını özləri hasil edirlər.

Bitkilər qida hasil edərkən təkcə torpaqdan faydalanmırlar. Torpaqdakı minerallarla yanaşı, sudan və havadakı karbon qazından istifadə edirlər. Bu xammalları götürüb yarpaqlardakı mikroskopik fabriklərdə emal edərək fotosintez edirlər.

Yarpaqlar xüsusilə bitkilərin qida hasil etməsi, tənəffüs etməsi kimi proseslər üçün dizayn olunublar. Bir az sonra təfərrüatı ilə görəcəyimiz bu dizayn, əlbəttə, bizə yarpaqları dizayn edən üstün qüvvət sahibi Allah`ın varlığını sübut edən dəlillərdəndir. Allah bitkilərin yaradılışına bir ayədə belə diqqət çəkir:

**Göydən suyu endirən Odur. Bu, həm sizin içməyiniz, həm də içində (mal-qaranızı) otardığınız (otların bitməsi) üçündür. (Allah) onunla sizin üçün dənli bitkilər, zeytun, xurma, üzüm və (başqa) meyvələrin hamısından yetişdirir. Həqiqətən, bunda anlayan adamlar üçün dəlillər vardır. (Nəhl surəsi, 10-11)**

## Yarpaqların xüsusi formasının səbəbi

Həm ümumi quruluş cəhətdən, həm də mikroskopik cəhətdən təhlil edildikdə yarpaqların ən çox enerji hasilatını təmin etmək üçün yaradılmış, çox dəqiq, kompleks sistemlərə malik olduğunu görərik. Yarpaq enerji hasil etmək üçün temperatur və karbon qazını xarici mühitdən almalıdır. Yarpağın quruluşu da bu iki maddəni asanlıqla qəbul edəcək şəkildə tənzimlənmişdir.

Əvvəlcə, yarpaqların xarici quruluşunu təhlil edək.

Yarpaqların xarici səthi genişdir. Bu da fotosintez üçün lazım olan qaz mübadiləsinin (karbon qazının qəbul edilməsi və oksigenin xaric edilməsi) asanlıqla həyata keçirilməsini təmin edir.

Yarpağın yastı forması isə bütün hüceyrələrin xarici

mühitə yaxın olmasına səbəb olur. Bu sayədə, qaz mübadiləsi asanlaşır və günəş şüaları fotosintez edən hüceyrələrin hamısına çatır. Bunun əksini təsəvvür edək. Yarpaqlar yastı və zərif quruluşda deyil, hər hansı həndəsi və ya mənasız formada olsaydı, yarpaq fotosintez prosesini sadəcə günəşin birbaşa təmas etdiyi hissələrdə həyata keçirərdi. Bu da bitkilərin kifayət qədər enerji və oksigen hasil etməsinə mane olardı. Nəticədə, canlılar enerjidən məhrum olardılar.

Yarpaqlar bitkilərin həm nüvə enerjisi hasil edən stansiyaları, həm qida hasil edən fabrikləri, həm də mühüm reaksiyaları həyata keçirdikləri laboratoriyalarıdır. Yarpaqlarda həyati əhəmiyyət daşıyan proseslərin necə baş verdiyini anlamaq üçün yarpaqların fizioloji quruluşunu da təhlil etmək lazımdır.

## Yarpaqların daxili quruluşu

Yarpağı eninə kəsərək təhlil etsək, dörd təbəqəli quruluşla qarşılaşarıq.

Bu təbəqələrdən birincisi xloroplast olmayan epidermis təbəqəsidir. Yarpağı altdan və üstdən örtən epidermis təbəqəsinin xüsusiyyəti yarpağı xarici amillərin təsirindən qorumaqdır. Epidermisin üstü qoruyucu, sukeçirməz mumabənzər maddə ilə örtülüdür. Bu maddə kutikula adlanır. Yarpağın daxili toxumasına baxdıqda isə, əsasən, 2 hüceyrə təbəqəsindən ibarət olduğunu görürük. Daxili toxumanı təşkil edən palisad toxumada xloroplastla zəngin olan hüceyrələr aralarında heç boşluq buraxmadan yan-yana düzülürlər. Bu toxuma fotosintezi həyata keçirən toxumadır. Palisad toxumanın altında yerləşən süngər toxuma isə tənəffüsü təmin edir. Süngər toxumadakı hüceyrələr digər hissələrdəki hüceyrələrə nisbətən daha boş şəkildə bir-birinə birləşiblər. Bundan əlavə, bu toxumanın hüceyrələri arasında hava ilə dolu boşluqlar var.

Göründüyü kimi, bu toxumaların hamısı yarpağın quruluşunda mühüm funksiyalar yerinə yetirir. Bu quruluş yarpaqda işığın daha yaxşı paylanmasını təmin edərək fotosintez prosesinin baş verməsi üçün böyük əhəmiyyət daşıyır. Bununla yanaşı, yarpağın səthinin ölçüsünə görə yarpağın funksionallıq (tənəffüs, fotosintez) qabiliyyəti artır. Məsələn, sıx tropik meşələrdə, əsasən, geniş yarpaqlı bitkilər yetişir. Bunun çox mühüm səbəbləri var. Daima çoxlu miqdarda yağış yağan, sıx ağaclardan ibarət tropik meşələrdə günəş işığının bitkilərin hər tərəfinə bərabər çatması çox çətindir. Bu da işığı qəbul etmək üçün yarpaq səthinin geniş olmasını tələb edir. Günəş işığının çətinliklə daxil olduğu sahələrdə bitkilərin qida hasil etməsi üçün yarpaq səthlərinin geniş olması böyük əhəmiyyət daşıyır. Çünki bu xüsusiyyətləri sayəsində tropik bitkilər müxtəlif yerlərdən ən çox faydalanacaqları şəkildə günəş işığı ala bilirlər.

Əksinə, quru, sərt iqlim qurşaqlarında kiçik yarpaqlı bitkilər yetişir. Çünki bu iqlim şəraitində bitkilər temperatur itirməməlidirlər. Yarpaq səthi geniş olduqda su buxarlanması, dolayısılə, temperatur itkisi artır. Bu səbəbdən, işığı qəbul edən yarpaq səthi bitkinin suya qənaət etməsi üçün xüsusi dizayn edilmişdir. Səhra mühitində yarpaq səthi bir az da kiçilir. Məsələn, kaktuslarda yarpaq əvəzinə tikanlar var. Bu bitkilərdə fotosintez ətli gövdədə həyata keçirilir. Gövdə həm də suyun tədarük edildiyi yerdir.

Buraya qədər verilən bir neçə nümunədən də göründüyü kimi, bitkilərdə qüsursuz sistemlər qurulub və bu sistemlər yaradıldıqları andan etibarən heç bir dəyişiklik olmadan dövrümüzə qədər gəlib çatmışdır. Yarpaq tökülməsi, bitkilərin özlərini günəşə doğru çevirməsi, bitkilərin yaşıl rəngi, gövdələrindəki oduncaq quruluş, kökləri, meyvələrin əmələ gəlməsi kimi bütün xüsusiyyətləri bənzərsizdir. Bitkilərdəkindən daha yaxşı sistemlərin əmələ gətirilməsi, hətta yarpaqlarda baş verən proseslərin (məsələn, fotosintez) müasir texnologiya ilə həyata keçirilməsi qeyri-mümkündür.

Bu isə yarpaqların təsadüfən əmələ gəlmədiyini sübut edir. Yarpaqları ən mükəmməl quruluşda yaradan bütün aləmlərin Rəbbi olan Allah`dır.

**O, Xaliq, yoxdan yaradan, surət verən Allah`dır. Ən gözəl adlar yalnız Ona məxsusdur. Göylərdə və yerdə olanların hamısı Onun şəninə təriflər deyir. O, qüdrətlidir, müdrikdir. (Həşr surəsi, 24)**



# Allah'ın səbəb sənəti

İnsanlar hər şeyin baş verməsini müəyyən səbəblərlə əlaqələndirirlər. "Günəş var deyə kölgə var" məntiqi insanların möcüzələri görməsinin qarşısını alır. Bir çox insan üçün möcüzələr səbəblər silsiləsidir. Bu silsilə belədir: çörək, çörək sexində bişirilir. Çörək sexində çörək undan hazırlanır. Un satıcıya dəyirmandan gətirilir. Dəyirman unu buğda şəklində alır. Buğda satan buğdanı kəndlidən alır. Kəndli buğdanı torpaqdan əldə edir... İnsanların inandığı kimi səbəb sistemi var. Lakin açıq şüurla baxdıqda bu silsilənin hər detalı Allah tərəfindən yaradılmışdır.

Allah kölgəni yaratdıqdan sonra günəşi ona səbəb etdiyini bir ayədə belə bildirir: **(Furqan surəsi, 45)**

*Məgər Rəbbinin kölgəni necə uzatdığını görmürsənmi? Əgər istəsəydi, onu daim öz yerində saxlayardı. Sonra Biz günəşi (kölgəyə) bir əlamət etdik.*
*(Furqan surəsi, 45)*

Səbəblərlə düşündükdə sperma ilə yumurta hüceyrənin birləşməsindən qüsursuz insanın əmələ gəlməsi normal qarşılanır, əslində isə heç də normal deyil. Bu barədə səmimi düşünən insan bircə su damcısının ağıllı, ruhu olan insana çevrilməsinin böyük möcüzə olduğunu dərhal qavrayar. Allah'ın böyük bir möcüzəni təcəlli etdirərək insanı yaratdığını açıq-aydın görər. Çünki açıq şüurla baxdıqda nə qədər səbəblər ardıcıllığı olsa da, Allah'ın yaratma sənətinin üstünlüyünü görmək mümkündür. Allah bir ayəsində belə bildirir:

**...Əvvəlcə səni torpaqdan, sonra bir qətrə sudan yaratmış, daha sonra səni adam şəklinə salmış Allah'ı inkarmı edirsən? (Kəhf surəsi, 37)**

Ülfətsiz baxdıqda Yer kürəsi kainatda boşluqda dayanırmış kimi görünür. Müxtəlif cazibə qüvvələrinin təsiri ilə Yerin kainatın dərin boşluğunda dayanması normal görünür, ancaq normal deyil. Normal şərtlər altında Yer Günəşin cazibə qüvvəsinə

görə ya tamamilə Günəşə doğru cəzb olunmalı, ya da müvazinəti tamamilə pozulmalıdır. Ancaq bu, baş vermir. Nəhəng planetimizin milyard illərdir sonsuz kainatda zərər görmədən eyni orbitdə qalması, müvazinətinin əsla pozulmaması, Yerin heç bir göy cismindən zərər çəkməməsi, bütün həyat şərtlərinin canlılar üçün uyğun olması səbəblərlə açıqlana bilməz. Çünki səbəblər olduqca həssas müvazinətlərdən asılıdır və bu həssaslıq hər an pozula bilər. Əslində, "səbəb" məntiqi ilə düşündükdə Yerin zərər görərək məhv olması bu şərtlər altında çox normaldır. Belə bir şeyin baş verməməsi Allah'ın üzərimizdəki uca rəhmətini və üstün müdafiəsini göstərir. Allah bir ayəsində belə buyurur:

**Göyü qorunub saxlanılan bir tavan etdik. Halbuki ayələrimizdən üz döndərdilər. (Ənbiya surəsi, 32)**

Günəşin temperaturunun insanların ehtiyacı olan qədər yer üzünə çatması da normal qəbul olunur. Halbuki bu qədər böyük məsafəyə və boşluğa baxmayaraq, Günəşin temperaturunun Yerə çatması qeyri-adi haldır. İzoləedici pəncərələrdə iki şüşənin arasına temperatur ötürülməsinin qarşısını almaq üçün boşluq qoyurlar. Bu boşluq temperatur itkisinin qarşısını almaq üçündür. Bu məntiqlə düşündükdə boşluğun temperaturu keçirmədiyini nəzərə alsaq, Günəşdən gələn temperaturun kosmik boşluqda necə bizə gəlib çatdığını anlamaq çətinləşər. Yəni səbəblər daxilində belə Günəşin temperaturu boşluqdan heç keçməməlidir. Günəşin temperaturunun boşluqda hədəfinə doğru istiqamət götürərək Yer kürəsinə gəlib çatması ancaq Allah'ın izni ilə olur.

İnsanların, əsasən, normal qəbul etdiyi səbəblər silsiləsi ciddi düşünülməli iman həqiqətləridir. Bu iman həqiqətləri iman gətirənlərin Allah'a yaxınlaşmasına vəsilə olduğu üçün çox dəyərlidir.

Adamın saysız-hesabsız iman həqiqətləri arasında təkcə gözü düşünməsi belə şüurunu açar. Göz hər an insana aydın görüntü verir. Ən mükəmməl fotokamera belə göz bülluru kimi avtomatik optik fokuslama edə bilmir. Fotokameranı avtomatik fokuslamaq üçün bir az səy göstərmək lazımdır, görüntünün aydın olması üçün bir az zaman tələb olunur. Lakin insan bir yerə baxdıqda: "Mən indi göz büllurumu uzağı görmək üçün fokuslayım", -deyə düşünmür. Bu qədər dəqiq yaradılışın şüursuz göz bülluru tərəfindən edildiyini düşünmək, əlbəttə, qeyri-mümkündür. Allah gözün aydın görməsi üçün göz büllurunu səbəb kimi yaratmışdır. Beynimizdə aydın, rəngli, işıqlı və hərəkətli dünya yaradan uca Rəbbimiz Allah'dır. Şübhəsiz ki, Rəbbimiz möhtəşəm yaratması ilə şükürə layiqdir.

Allah istəsəydi, hər şeyi səbəbsiz yaradardı. Səbəblərin olması Allah'ın sonsuz ağlını qavramağımız üçün vacibdir. Səbəblərin hər birinin bir-biri ilə əlaqədar yaradılması heç nəyin təsadüfən əmələ gəlmədiyini sübut edir. Çünki Allah üstün ağlı ilə hər şeyi ən incə təfərrüatına qədər nizamlayır.

# İslamın əsl üzü

**“Dənizdə günəş qəbul edərkən ya da muzeydə gəzərkən üzərilərinə ölüm yağan turistlər...”**

**“Yandıraraq, boğaraq, güllələyərək və ya başını kəsərək həyata keçirilən edamlar...”**

**“Uzanmış saç və saqqaldan görünməyən üzlər...”**

Bu gün Nyu-York və ya Parisdə yoldan keçən birindən: “İslam deyəndə ağlınıza nə gəlir?” -deyə soruşduqda çox güman bu cavabları alacaqsınız.

Qərbdə də, Yaxın Şərqdə də bir çox insan, əslində, bu edilənlərin İslamla əlaqəsinin olmadığını düşünür və bunu dilə gətirir. Ancaq bu açıqlamalar İslam haqqında yaranmış fikri dəyişmir. Avropada müsəlman düşmənçiliyi getdikcə artarkən, Quranda təsvir edilən gerçək İslamı təsirli şəkildə anlada bilmədiklərinə görə ilk növbədə müsəlmanların özləri zərər çəkir.

Bu halda müsəlmanların üzərinə böyük məsuliyyət düşür. İlk öncə İslamın Quran əvəzinə saxta mənbələrlə yanlış tanıdıldığı göstərilməlidir. İslamda müasir demokratiyalarda və dövlət quruluşlarında olmalı olan bütün azadlıqların mövcud olduğu sübutları ilə birlikdə izah edilməlidir. Bu gün müsəlmanlara qarşı irəli sürülən ən böyük tənqid demokratiyanın əsası olaraq qəbul edilən hüquq və azadlıqların İslamda olmadığı istiqamətindədir. Bu səbəbdən, bir çox qərb mütəfəkkir və siyasətçiyə görə İslam və demokratiyanın uyğunlaşması əsla mümkün deyil.



Halbuki insanlığın 14 əsr öncə tanıdığı müsəlmanların müqəddəs kitabı Qurani-kərim Avropa İnsan Hüquqları Bəyannaməsinin təqdim etdiyi azad həyat tərzindən daha da artığını ehtiva edir. Peyğəmbərimiz (səv) tərəfindən qüvvəyə minən və tarixin ilk konstitusiyası olaraq qəbul edilən Mədinə müqaviləsi tarixin ən demokratik konstitusiyasıdır.

İnsan hüquqlarının ən əsas maddəsi yaşamaq hüququdur. İnsan Hüquqları Bəyannaməsində mövcud olan 2-ci maddə ilə müəyyən hallar istisna olmaqla hər kəsin yaşamaq hüququnun qorunduğu qeyd edilmişdir. Qurani-kərimdə də 5-ci surənin 28-30-cu ayələrində qəsdən adam öldürmənin böyük günah olduğundan bəhs edilir. 32-ci ayədə isə bir insanın öldürülməsi bütün insanlığın öldürülməsinə bərabər tutulur. Qurana görə, insan öldürməyə ancaq zəruri müdafiə şəraitində yol verilir. Avropa İnsan Hüquqları Bəyannaməsində də qiyam və üsyanların qarşısını alma halı istisna

olduğu kimi, Quran ayələrində də öldürməyə dair ayələr ancaq müharibə zamanı özünü müdafiə etməyə işarə edir. Müharibə Qurana görə ancaq hücum zamanında müdafiə məqsədi ilə əl atılacaq və mütləq müəyyən əxlaqi sərhədlər daxilində həyata keçirilən arzu olunmayan məcburiyyətdir. Yəni qarşı tərəfdən hər hansı bir hücum olduğu zaman müsəlmanlar öncə sülh və razılığa üstünlük verməlidir. Ancaq qarşı tərəf sülhü rədd etdikdə və müharibə qaçılmaz olduqda müsəlmanlar özlərini müdafiə etmək məcburiyyətində qalır.

Burada bunu xatırladaq ki, Quran ayələrində başqa inancdan olanların və ya İslamın tələblərini yerinə yetirməyənlərin öldürülməsi hökmü əsla mövcud deyil. Əksinə, Quranda dində əsla məcburiyyətin olmadığı bildirilmiş və bütün inanclı və inancsız insanları belə ehtiva edən demokratik model təsvir edilmişdir.

Quranda insanların təhlükəsiz və sülh içində yaşaması üçün şərait yaradan çoxlu sayda ayə mövcuddur. Məsələn, «Tövbə» surəsinin 6-cı ayəsində müsəlman olmayan və Quranda əxlaqi olaraq qınanan insanların təhlükəsizliyi məsələsində müsəlmanlar öz həyatlarını təhlükəyə atsalar belə, çox həssas olmaları əmr edilmişdir. Bu xüsus Avropa İnsan Hüquqları Bəyannaməsinin 5-ci maddəsində mövcud olan azadlıq və təhlükəsizlik hüququ ilə tam uyğunluq təşkil edir. Qurani-kərimdə ədalətin təmin edilməsi məsələsində ən üst səviyyədə həssaslıq göstərilməsi, müsəlmanların özlərinin və yaxınlarının əleyhinə olsa belə, ədalətlə hökm etmələri əmr edilmişdir. (4/135)

Bəyannamənin 9-cu maddəsində hər kəsin düşüncə, vicdan və din azadlığı olduğu bildirilir. İslam isə insanlara düşünmə və düşüncəni ifadə etmə azadlığını verən, insanların hər cür hüququnu qoruma altına alan bir dindir. Qurani-kərimdə yer alan bir çox ayə bu gerçəyi açıq şəkildə ortaya qoyur. «Bəqərə» surəsinin 256-cı ayəsində dində məcburiyyətin olmadığı bildirilmişdir. Başqa bir ayədə Allah insanlara İslam peyğəmbərinin məcbur etmədiyini, yalnız öyüd verdiyini xatırladır. (88/21-22)

Qurana əsaslanan İslam əxlaqına görə, hər müsəlman yaşadığı cəmiyyətdə hər bir düşüncənin və inancın rahat şəkildə ifadə edilməsinə açıq olmalı, qarşısındakının həyatına, fikirlərinə hörmət etməlidir.



Belə bir müsəlman din əxlaqına uyğun olmayan, hətta dinsiz ideologiyaların belə rahatlıqla anladıla bilməsini istəyir ki, bu şəkildə, bu fikirlərə qarşı lazımi cavabı elmi və ideoloji olaraq tam verə bilsin. Düşüncə və ideologiyaların təzyiq altına alınıb qadağan edilməsi müsəlman üçün asanlıq deyil, əksinə, təbliğini və elmi mübarizəsini daha da çətinləşdirən amildir.

Bu gün beynəlxalq mediada İslamın terrorizm, sənət və elm düşmənçiliyi ilə eyniləşdirilməsinə səbəb olan görüntülərin səbəbi Quranın deyil, xurafatçı şərhlərin və bəzi saxta rəvayətlərin dinin əsası olaraq qəbul edilməsidir. Ona görə azadlığın, tolerantlığın, yaşamaq hüququnun, sənətin və elmin İslamın ayrılmaz parçası olduğunu anlatmaq lazımdır. İslam gözəllikdir, sevgidir, sülh və demokratiyadır. İslam insanlara hüquq və azadlıqlar bəxş edir.



# YUXUDA İKƏN BƏDƏNİMİZDƏ HANSI PROSESLƏR BAŞ VERİR?

Hər insan ömrünün 1/3-ni yuxuda keçirir. Hər gün baş verən, əslində, böyük möcüzə olan yuxu bütün bədən sistemlərinin passivləşdiyi dincəlmə prosesi deyil. Çünki yuxuda bədəndə aktiv yenilənmə prosesi başlayır. İndi yuxuda insan bədənində necə yenilənmə prosesi olduğuna nəzər salaq.

Yuxu insan həyatının labüd ehtiyaclarından biridir. Bədənimizin suya, oksigenə və qidaya ehtiyacı olduğu qədər yuxuya da ehtiyacı var. Yuxu passiv dincəlmə prosesi deyil. Yuxu əsnasında gün ərzində beyini məşğul edən fəaliyyətlər, gərginliklər və hafizəyə ötürülən məlumatlar sanki kompyuterin yaddaşının təmizlənməsi kimi təmizlənir. Yuxuda hormon səviyyəsi tarazlaşdırılır, həzm sistemi işləyir, immun sistemi işə düşür, dəri yenidən formalaşır. Hüceyrə bölünməsi yuxuda güclü şəkildə davam edir.

## Yuxuda nələr yenilənir?

Dərimizin qırışsız qalması hər gün 10 qram ölü dəri hüceyrəsinin bədəndən atılması ilə təmin olunur. Bunun üçün hər axşam dərimizin ən üst təbəqəsindəki hüceyrələr bölünməyə başlayır. Yuxu zamanı isə böyümə hormonunun artması ilə bu reaksiya sürətlənir. Gecənin səssizliyi bunun üçün ən ideal mühitdir. Çünki gecə nə günəş, nə külək, nə də hərəkət hüceyrə bölünməsinə mane olur. Bu yenilənmə saatlarında dərinin başda oksigen olmaqla, bir sıra qida maddəsinə ehtiyacı var. Hər nəfəs aldıqda dəri ehtiyacı olan oksigeni tədarük edir. Bu səbəbdən, mütəxəssislər axşamlar yatmazdan əvvəl yataq otağının havasının dəyişilməsini tövsiyə edirlər. Yatarkən, xüsusilə də yuxu gördüyümüz saatlarda bədən temperaturunun 2 dərəcə artması ilə orqanizm bol miqdarda maye ifraz edir. Buna görə, səhər oyandıqda saçlarımız nəm, forması pozulmuş olur. Yağ vəziləri gecələr yeniləndiyi üçün yuxu zamanı yağ ifrazı az olur. Bu səbəbdən, dərisi quru olanlar səhər dəriləri qurumuş oyanırlar. Yuxu mütəxəssisləri qanımızdakı böyümə hormonu miqdarının yuxuya gedən kimi ani surətdə artdığını müəyyən ediblər. Bu səbəbdən, normal yuxudan sonra bədənimiz yenilənmiş şəkildə oyanırıq.

## Nə vaxt, nə qədər yatmalıyıq?

Gündəlik yuxu müddəti insandan və yaşdan asılı olaraq dəyişir. Əsasən, yaş artdıqca yuxu müddəti azalır. Ancaq gündəlik təqribən 6-8 saatlıq yuxu böyüklər üçün kifayətdir. Tez-tez dərin yuxuya gedə bilməyən insanlar tez xəstələnirlər. Belə hallarda bədənin ritmi nəzarətdən çıxır. Bu isə dəriyə təsir edir: dəri quruyur, qabıqlanır, çatlayır, hüceyrələr müntəzəm bölünmədiyi üçün dəri getdikcə nazilir. Quru dəri daha da quruyur, qırışlı dəri isə daha da xarab olur.

Mütəxəssislər ən ideal yuxu vaxtının gecə olduğunu bildirirlər. Yuxu pozuntusu olanlara gündüz yatmağı tövsiyə etmir, gecə yuxusunun əhəmiyyəti üzərində dayanırlar. Hüceyrə yenilənməsi və hormonal reaksiyalar ancaq gecələr baş verdiyi üçün günorta yuxusunun o qədər də əhəmiyyəti yoxdur. Çünki beynimizin ifraz etdiyi melatonin hormonu hava qaraldıqdan sonra ifraz olunur. Dərinin yenilənmə prosesini də bu hormon başladır.



## Yuxusuzluq

Bədənimizdə gündəlik yuxu-oyaqlıq dövranını tənzimləyən mexanizm var. Sirkad ritmi adlanan bu mexanizm bədəndəki 24 saatlıq dövrə görə tənzimlənmiş bioloji saat tərəfindən idarə edilir. Əsasən, ətraf mühit və daxili amillərə görə, bu ritm pozularaq yuxusuzluq meydana gəlir. Bununla yanaşı, nizamsız yuxu vərdişləri, psixoloji səbəblər, nevroloji xəstəliklər, hormonal pozuntular, fizioloji və irsi amillər də yuxusuzluğa səbəb olur. Yuxusuzluq ağrıdan sonra cəmiyyətdə ən çox rast gəlindən ikinci şikayətdir. Amerikada bu xəstəlik tibbi xərclər, qəza itkisi, işə gəlməmə və istehsalda azalma kimi ildə təqribən 100 milyard dollar itkiyə səbəb olur.

Yuxusuzluq ümumi yuxu vaxtı olaraq deyil, kifayət qədər və yaxşı yuxu almadan səhərə dincəlmədən oyanma kimi tərif edilir. Məsələn, gündəlik yuxu ehtiyacı 5 saat olan və 5 saat yuxudan sonra səhər dincəlmiş şəkildə oyanan insan yuxusuzluqdan əziyyət çəkməz.

## Müxtəlif yuxu pozuntuları

Yuxu pozuntusu ən çox yuxulaya bilməmək, yuxuya gedə bilməmək, yuxunun bölünməsi və ya səhər erkən saatda yuxudan oyanıb yenidən yuxuya gedə bilməmək şəklində müşahidə olunur. Ancaq çox yatmaq və ya yastığı görən kimi yuxu gəlməsi də yuxu pozuntusunun bir növüdür. Yuxusuzluğun ən çox rast gəlinən növü psixofizioloji yuxusuzluqdur. Bütün yuxu xəstəliklərinin əlaməti kimi üzə çıxır. Bundan əlavə, daxili, psixiatrik və ya dərmanlarla əlaqədar olaraq da ortaya çıxır. Psixofizioloji yuxusuzluq, əsasən, stress kimi amillərdən əmələ gəlir. Psixofizioloji yuxusuzluqda bütün diqqət yuxuya getməmək üzərində toplanır. İdiopatik yuxusuzluqda isə insan xroniki və ciddi yuxulaya bilmir, yuxunu davam etdirə bilmir. Yatağa girdikdə yuxuya getmə prosesi çox uzun olur və yuxu oyanmalarla bölünür. Buna səbəb nevroloji pozuntudur. Nevroloji pozuntu nə qədər yüngül və ya güclüdürsə, yuxusuzluq da bu qədər yüngül və ya güclü ola bilir. Ciddi hal-larda xəstələr iş görə bilmirlər. Bununla yanaşı, yuxuda gəzmək, yuxuda qorxma da geniş yayılmış yuxu pozuntularındandır.

Yuxusuzluq tez-tez rast gəlinən, müalicə olunan xəstəlikdir. Müalicə olunmadıqda mühüm xəstəliklərə, hətta ölümə səbəb olur, depressiyanın əmələ gəlməsində risk amilinə çevrilir.

## Yuxu apnesi və yuxuda ruhun alınması

Yuxuda tənəffüsün dayanması kimi tərif edilən apne həyatı təhlükə altında qoyan uzunmüddətli ciddi xəstəliklərə səbəb olur. İlk dəfə 1965-ci ildə diaqnozu qoyulan apne yunan dilində “nəfəs alma arzusu” deməkdir. İki növ yuxu apnesi var: birində beyin tənəffüs əzələlərində tənəffüsü başladan düzgün impulsları göndərə bilmir, digərində isə hava tənəffüs yollarında tıxanır. Apne zamanı insan nəfəs almaqda çətinlik çəkir və damarlarla ürək müqavimətə qarşı işləyir. Həmin an qandakı oksigen miqdarı azalır. Ürəyin də ritmi pozulur. Yuxuda ani ölüm halları başda olmaqla, hipertenziya, ürək xəstəlikləri, infarkt və iflic uzun müddət davam edən apnenin səbəb olduğu xəstəliklərdəndir.

Göründüyü kimi, yuxu zamanı insanın həyatı bir çox təhlükə ilə qarşılaşır. Ona görə də hər səhər yuxudan sağlam oyandığımıza görə şükür etməliyik. Yuxu zamanı insan şüurunu və xarici mühiti qavrama qabiliyyətlərini qismən itirir. “Kiçik ölüm” adlanan yuxudan şüurlu





vəziyyətdə oyanmaq, qüsursuz görmək, eşitmək, hiss etmək kimi nemətlər üzərindən düşünmək lazımdır. Gecə yatmaq üçün yatağına girən insan bu bənzərsiz nemətlərin səhər yenidən ona veriləcəyinə əmin ola bilməz. Bundan əlavə, insan hər hansı fəlakətlə qarşılaşmadan və ya sağlamlığında problem olmadan oyanacağına da əmin ola bilməz.

## Yuxusuzluq necə təsir edir?

Kifayət qədər yatmadıqda insan gün ərzində yuxulu olur. Lakin ən əsası, insanda düşünmə problemləri meydana gəlir. Yeni şeyləri daha yavaş öyrənir, hafizə və qərar vermə prosesində problemlər yaranır. Yuxu azlığı və ya yuxulaya bilməmə, yuxu əsnasında tənəffüs pozuntusunun olması qanda oksigenin səviyyəsindəki dəyişikliklərə, düşünmə, hafizə və fiziki pozuntulara səbəb olur. Fiziki pozuntular isə ürək, ağciyər və hormonal xəstəliklər törədir.

## Yuxuda hərəkət etməyin əhəmiyyəti

Uzun müddət eyni vəziyyətdə yatan insanların səhhətində ciddi problemlər yaranır: qan dövranında fəsadların meydana gəlməsi, dəridə yaraların əmələ gəlməsi, bədənin yatılan tərəfi ilə təmas edən bölgələrdə qanın laxtalanması...

Uzun müddət eyni vəziyyətdə yatdıqda yataq yaraları əmələ gəlir. Çünki uzun müddət eyni vəziyyətdə yatdıqda bədənin müəyyən hissəsinə təsir edən mütəmadi təzyiq qan damarlarının sıxılıb tutulmasına səbəb olur. Nəticədə, qan yolu ilə daşınan oksigen və digər qidalar dəriyə çatmır və dəri ölməyə başlayır. Bu isə bədəndə yaralar əmələ gətirir. Əgər bu yaralar müalicə edilməzsə, dərinin təbəqələri, yağ və əzələ toxumaları da ölür.

Dərinin və ya toxumanın altında əmələ gələn yaralar müalicə edilməzsə və ya infeksiyaya məruz qalarsa, ağırlaşır, hətta həyati təhlükəyə səbəb olur. Bu səbəbdən, dəriyə təzyiqi azaltmaq üçün hər 15 dəqiqədə vəziyyəti dəyişmək lazımdır. Hərəkət edə bilməyən iflic xəstələrinə də bu səbəbdən xüsusi qayğı göstərilir və hər 2 saatda başqasının köməyi ilə hərəkət edirlər.

# Bir ayə, bir açıqlama

*Bir ayə bir açıqlama: "Yasin" surəsi, 81*

*Məgər göyləri və yeri yaradan onlar kimisini yaratmağa qadir deyilmi?! Əlbəttə (qadirdir). (Hər şeyi) yaradan, (hər şeyi) bilən Odur! (Yasin surəsi, 81)*

Hər şeyi istədiyi anda yaratmağa qadir olan uca Allah bu ayədə sonsuz yaratma gücünü bizə bildirir.

Allah hər şeyin Yaradanı kimi bütün varlıqların yeganə sahibidir. Göyləri və yeri yaradan Allah istəsə, onların bənzərini də yaradar. Buludları Allah hərəkət etdirir, külәkləri Allah əsdirir, Günəşə temperaturu və işığı Allah verir, quşları havada Allah saxlayır, toxumu Allah cücərdir. Bitkilərə Allah fotosintez etdirir, planetləri orbitində Allah hərəkət etdirir. İnsanlar bu cür hadisələrin fiziki qanunlar, cazibə qüvvəsi, aerodinamika və bənzər maddi amillərlə əmələ gəldiyini zənn edirlər. Halbuki bəzilərinin unutduğu mühüm bir həqiqət var: bütün fiziki qanunları da Allah yaradıb. Kainatda yeganə qüdrət sahibi Allah'dır.

Biz yatarkən, oturarkən, yeriyərkən, heç ağlımıza gətirmədikdə belə, Allah kainatda mövcud olan bütün sistemlərin hamısını an-an yaradır. Varlığımızın davam etməsi üçün baş verən proseslərin hər biri Allah'ın nəzarəti altındadır. Kiçik addım atmağımız, habelə yerin cazibə qüvvəsindən dayaq-hərəkət sistemimizə, sinir və əzələ sistemimizdən beynimizə və ürəyimizə, hətta Yerin fırlanma sürətinə qədər hər şey Allah'ın həssas yaratmasından asılıdır.

Allah istədiyini istədiyi şəkildə və zamanda yoxdan yaradandır. Hər cür qüsurdan uzaqdır, heç nəyə möhtac deyil. Allah'ın yaratması üçün heç bir səbəbə, vasitəyə, mərhələyə ehtiyac yoxdur. Allah bütün bu səbəblərin yaradanı kimi bunların heç birindən asılı deyil.

Göylərin və yerin Rəbbi olan Allah istədiyi təqdirdə bu səbəbləri də aradan qaldıra bilər. Ona görə, insan Allah'ın böyüklüyünü, qüvvətini düşünərkən öz duyğu orqanları və ağlı çərçivəsində düşünərsə, yanılar. Biz Allah'ın istədiyi ölçüdə öyrənirik.

Allah üçün yaratmaq çox asandır. Bunun üçün ayələrdə bildirildiyi kimi sadəcə "Ol" əmrini verməsi kifayətdir. Allah kainatdakı bütün qanunları Özü həyata keçirir və onları istədiyi formaya salır. Allah istədiyini istədiyi anda həyata keçirir. Allah göydə və yerdə olan hər şeyi əhatə edir, qüdrəti ilə hər şeyə hakimdir.

# Orqanizmdəki maye miqdarını tənzimləyən

# BÖYRƏKLƏR



Orqanizmdə qüsursuz planlanmış sistem işləyir. Böyrəklər bu sistemlərdən biridir.

Əgər tərləmə və ya bir müddət su içməmə səbəbindən bir az su itirsək, qandakı suyun miqdarı azalar.

Qan beyində hərəkət edərkən hipotalamus adlanan bölgədəki xüsusi reseptorlar hərəkətə keçir və hipofiz vəzinə impuls göndərir. İmpulsu qəbul edən və orqanizmdə suyun azaldığını anlayan hipofiz vəzi böyrəklərə xüsusi mesaj (antidiuretik hormon- ADH) göndərir. Bu mesaj borucuqlardakı hüceyrələrə "orqanizmdə su çatışmazlığı var, artıq suyu geri qaytarın" əmrini verir. Borucuqlar sidikdən daha çox suyu soraraq qana qarışdırırlar və bu şəkildə orqanizmdə su çatışmazlığı aradan qaldırılır. (Arthur C. Guyton, M.D., Text Book of Medical Physiology, W.B. Saunders Company, 7th Edition, 1986, səh.613-614)

Əgər artıq su içmişiksə, bu dəfə də həmin əmr sistemi zənciri çərçivəsində xəbərləşmə baş verir. Ancaq bu dəfə borucuqlardakı hüceyrələrə "orqanizmdə artıq su var, suyu lazımsız yerə geri qaytarmayın" əmri verilir.

Beyinin altında yerləşən hipofiz vəzini təşkil edən hüceyrələrin gördüyü işi yenidən düşünək. Burada yerləşən hüceyrələr özlərindən çox uzaqda yerləşən böyrək hüceyrələrinə xüsusi mesaj göndərirlər. Böyrək hüceyrələri də gələn əmrə qeyd-şərtsiz itaət edirlər. Daha sonra böyrək hüceyrələri sidiyin içindən su molekullarını bir-bir seçir və bu qarışıq mayenin içindən tər-təmiz su əldə edərək orqanizmə göndərirlər.

Beyin hüceyrələri və böyrək hüceyrələri arasında əlaqənin olması, böyrək hüceyrələrinin sidiyi təmizləyərək içindən tər-təmiz su əldə etməsi, şübhəsiz ki, ağılın göstəricisidir. Yer üzündəki bütün canlıların varlığını bəsit təsadüflərlə açıqlamağa çalışan təkamül nəzəriyyəsini kökündən məhv etmək üçün təkcə bu sistem belə kifayətdir. Çünki ifrazat sisteminin işləməsi üçün bir-birindən asılı olmayan bir çox hissə eyni anda mövcud olmalı və bunlar bir-biri ilə tam uyğun işləməlidirlər.

Məsələn, bu sistemdə hipofiz vəzindən böyrəklərə əmr aparan antidiuretik hormon olmasa, ciddi xəstəlik meydana gələr. Bu xəstəlikdə gündəlik sidik ifrazatı 1.5 litr əvəzinə 25-30 litrə çatır və ölümcül nəticələr doğurur.